# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub



**İyulun 7-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

# II qrup üzrə qəbul imtahanının nəticələri 2 həftəyə açıqlanacaq



Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbul olmaq üçün II ixtisas qrupu (o cümlədən III ixtisas qrupu üzrə coğrafiya fənni) üzrə iyulun 7-də keçirilən imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını açıqlayıb.

*DİM-dən verilən xəbərə görə, imtahan nəticələri yaxın iki həftə ərzində elan olunacaq.*




# Azərbaycanda gəmilərdən istifadə edən sərnişinlərin sayı artıb

**2022-ci ilin yanvar-may aylarında Azərbaycanda dəniz nəqliyyatı növü ilə daşınmış sərnişinlərin sayı 2021-ci ilin müvafiq dövrünə nisbətən 28,3 faiz artaraq 6,8 min nəfər olub.**

Bu barədə Trend-ə Dövlət Statistika Komitəsindən məlumat verilib.

*Qeyd olunan müddət ərzində dəniz nəqliyyatı ilə 2022-ci ilin yanvar-may aylarında daşınmış yüklərin həcmi 2854,0 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 18,9 faiz artıb.*


❒ № 119 (5641), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 iyul 2022-ci il (cümə)




# "Bu bayram ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin"

Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb.**

Təbrikdə deyilir:

- Hörmətli həmvətənlər!

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.

(səh.2)

# Çavuşoğlu rusiyalı və ukraynalı həmkarları ilə müzakirələr aparıb



**20 (Böyük İyirmilik) ölkələrinin xarici işlər nazirlərinin İndoneziyanın Bali adasında keçiriləcək görüşü çərçivəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrov bir araya gəliblər.**

Məlumatı Türkiyə Xarici İşlər Nazirliyi yayıb.

Bildirilir ki, nazir Mövlud Çavuşoğlu ukraynalı həmkarı Dmitri Kuleba ilə də telefon danışığı aparıb.

Qara dənizdə taxıl ixracatı hər iki müzakirənin əsas mövzularından olub.

# Əfsanə bitdi

## Boris Conson getdi, dalğa hələ qabaqdadır



"İngiltərə baş nazirinin istefası Ukrayna müharibəsi və dünyanın yenidən bölüşdürülməsi savaşı fonunda maraqlı hadisədir"

**Böyük Britaniyanın Baş naziri Boris Conson istefa verib. O, bu barədə xalqa müraciətində bildirib: "Bizə indi sakitlik və birlik lazımdır. Mən yeni lider seçilənə kimi vəzifəmi icra edəcəyəm".**

Qeyd edək ki, Mühafizəkarlar Partiyası yeni liderin və yeni baş nazirin təyin olunması tələbi ilə çıxış edib. Son günlər Böyük Britaniya çalxantılı dövrünü yaşayır. Qısa müddətdə bir çox nazir istefa verib. Üç gün ərzində ölkənin Maliyyə naziri Rişi Sunak, Səhiyyə naziri Sacid Cavid, Uşaq və ailə naziri Vill Kuins, Nəqliyyat nazirinin müavini Laura Trott və Məktəb naziri Robin Valker vəzifəsindən uzaqlaşıb. Ümumilikdə isə 27 məmur hökuməti tərk edib.

(səh.4)

# Müharibə olmayacaq

## İrəvan yeni güzəştlərə gedəcək



**Azərbaycan-Ermənistan arasında növbəti müharibə olacağı ehtimalları səslənsə də, indiki şəraitdə reallıq səviyyəsi aşağıdır.**

Ən azından ona görə ki, sülh danışıqları davam edir və həlledici irəliləyişlər ictimaiyyətə açıqlanmasa da, pərdə arxasındakı dialoq iştirakçıları bundan xəbərdardır.

Hərçənd, Azərbaycan Ermənistana qarşı hərbi əməliyyatları da istisna etmir və bunun üçün resurslarının mövcudluğunu göstərir. Bakının sərgilədiyi bu cür hərbi-siyasi davranış Azərbaycanın danışıqlarda mövqelərini bərkidir və Ermənistan növbəti kapitulyant güzəştlərə getməyə məcbur qalır.

(səh.3)



# "Hamı bilməlidir"

Putin: "Rusiya Ukraynada hələlik ciddi heç nəyə başlamayıb"

**"Rusiya Ukraynada hələlik ciddi heç nəyə başlamayıb".**

"Report" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Dövlət Dumasının rəhbərliyi və fraksiya liderləri ilə görüşdə deyib.

"Hamı bilməlidir ki, biz, ümumiyyətlə, hələ heç nəyə başlamamışıq", - Rusiya lideri əlavə edib. Eyni zamanda, Prezident qeyd edib ki, Rusiya sülh danışıqlarından imtina etmir, lakin nə qədər uzağa getsə, danışıqlar bir o qədər çətin olacaq.

"Bu gün eşidirik ki, onlar bizi döyüş meydanında məğlub etmək istəyirlər. Qoy cəhd etsinlər", - Putin Qərbin Rusiya üzərində hərbi qələbəsi barədə bəyanatına cavab olaraq bildirib.

# 1 nəfər vəfat edib

Daha 40 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 40 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 793 546 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 550 nəfər müalicə olunaraq sağalıb, 9 719 nəfər vəfat edib, aktiv xəstə sayı 277 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 348, hazırkı dövrədək isə 6 980 033 test aparılıb.*

# Sabirabadda 63 yaşlı qadın intihar edib

Hadisənin səbəbləri hələ ki məlum deyil



**Sabirabad rayonunda intihar hadisəsi baş verib.**

"Report"un Aran bürosunun məlumatına görə, hadisə rayonun Qaratəpə kəndində qeydə alınıb.

Belə ki, kənd sakini, 1959-cu il təvəllüdlü Tamarova Səbirə Şurin qızı yaşadığı evin həyətindəki yarımtikilidə özünü asaraq intihar edib.

İntiharın səbəbləri hələ ki məlum deyil.

Faktla bağlı araşdırma aparılır.



# "Diqqəti İrəvanın qədim Azərbaycan torpağı olduğuna yönəltməliyik"

Nəsiman Yaqublu: "Ermənilər Təpəbaşı məhəlləsinin məhv edilməsinə cavab verməli, təzminat ödəməlidirlər"

(səh.4)



# Normal təhsil, tərbiyə mühiti yarada bilmədik

"Dünya Bankının krediti hesabına milyonçu olanları hamı tanıyır"

(səh.5)

# “Bu bayram ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin"

## Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb.**

**Təbrikdə deyilir:**

***- Hörmətli həmvətənlər!***

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.

Azərbaycan xalqı əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm.

**Əziz bacı və qardaşlarım!**

Ümidvaram ki, etdiyiniz dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəkdir.

Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin.

**Bayramınız mübarək olsun!**

## Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə komissiyanın tərkibində dəyişiklik edildi

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 noyabr tarixli 2505 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.**

Sərəncama əsasən, ”Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 noyabr tarixli 2505 nömrəli Sərəncamının 1-ci hissəsində ”Azərbaycan Respublikası Baş nazirinin birinci müavini” sözləri ”Azərbaycan Respublikasının iqtisadiyyat naziri” sözləri ilə əvəz edilsin və həmin hissədən ”Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini” sözləri çıxarılır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərəcək.



# Şabrana yeni prokuror təyin edilib

**Şabran rayonuna yeni prokuror təyin olunub.**

Bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.

Əmrə əsasən, Axundov Cəlaləddin Nizaməddin oğlu Şabran rayon prokuroru vəzifəsinə təyin edilib.

# “Biz güclü hərbi dəstək almışıq"

## Zelenski Britaniyanın Ukrayna ilə bağlı siyasətinin dəyişməyəcəyinə əmindir

**Ukrayna Prezidenti Vladimir Zelenski əmindir ki, Boris Conson istefa versə də, Britaniyanın onun ölkəsi ilə bağlı siyasəti dəyişməyəcək.**

APA xəbər verir ki, bu barədə Zelenski CNN-ə müsahibəsində deyib.

Boris Consonu Ukraynanın ”həqiqi dost”u adlandıran Zelenski vurğulayıb ki, Conson Ukraynanı tam dəstəkləyib və bununla da Britaniyanın tarixin doğru tərəfində olmasını seçib.

”Mən əminəm ki, Britaniyanın siyasəti dəyişməyəcək. Baş nazir Consonun atdığı addımlarla bizim münasibətlərimiz daha da güclənib. Biz Britaniyadan güclü hərbi dəstək almışıq”, - Zelenski əlavə edib.

# Yeni həbs dalğası başlayacaq

## FETÖ-nün NATO tərəfindən terror təşkilatı kimi tanınması Ərdoğanın əl-qolunu açdı



**FETÖ təşkilatı NATO-nun terror qurumları siyahısına daxil edilib. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib. O qeyd edib ki, buna NATO-nun Madrid Zirvəsi zamanı İsveç və Finlandiyanın təşkilata üzv olmasına dair danışıqlarda şərt qoyaraq nail olub.**

Ərdoğan əlavə edib ki, siyahıya PKK, PYD-YPG də daxil edilib: “İsveç, Finlandiya və NATO rəhbərliyinə FETÖ-nü terror təşkilatı kimi tanıyacaqsınız dedik. Razı olmasanız, imza atmayacağıq dedik, razılaşdılar. Beləliklə, FETÖ terror təşkilatı kimi siyahıya daxil oldu”. Türkiyə lideri bildirib ki, bu günə qədər yalnız Avropa Birliyinin terror təşkilatı olaraq tanıdığı PKK, NATO tərəfindən də terror təşkilatı kimi tanınıb: “Baş katibə, digər prezident və baş nazirlərə “bunlar qırmızı xətlərimizdir” dedik”.

**Mühüm qərarla bağlı “Şərq”ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, FETÖ-nün beynəlxalq hərbi blok tərəfindən terror təşkilatı kimi qəbul olunması Ərdoğanın əl-qolunu açdı.** Professorun sözlərinə görə, FETÖ-nün həm PKK, həm də ASALA kimi təşkilatlarla çox ciddi əlaqələri var. Həmçinin, Suriya və Livanda “Hizbullah” terror təşkilatı ilə də əlbirdir: “NATO-nun qərarı Türkiyə üçün böyük əhəmiyyət kəsb edir. Türkiyə hökuməti illərdir həm daxildə, həm də xaricdə terrorçu qüvvələrə qarşı mübarizə aparır. Xüsusən, sovet ittifaqının, İranın, Suriya və Livanın dəstək verdiyi PKK terrorçuları kifayət qədər küncə sıxılıb. PKK-nı da 1985-ci ildə Suriyada ASALA yaradıb. Başında da Rusiyanın kəşfiyyat orqanları dayanırdı. Türkiyədə həbsdə olan fetöçülərin sayı minlərlədir. Böyük ehtimalla yeni həbs dalğası başlayacaq. Nəzərə alaq ki, Türkiyədə gələn il prezident seçkisi keçiriləcək. CHP və müttəfiqləri seçki öncəsi ölkədəki sabitliyi pozmaq, aranı qarışdırmaq üçün əllərindən gələni edəcəklər. Seçki öncəsi, elə seçki dönəmində də Türkiyənin böyük şəhərlərində terror aktları törədilməsinə cəhdlər olacaq. Ankara hökuməti bunların qarşısını almaq üçün çalışacaq. Qardaş ölkədə kəşfiyyat xidməti çox güclüdür. FETÖ-nün terrorçu kimi tanınması bu qruplaşmaya qarşı mübarizəni daha da genişmiqyaslı edəcək. Yaxşı olar ki, FETÖ-nün Azərbaycana uzanan əlləri də kəsilsin. Bəziləri maskalansa da, bizdə də fetöçülər var”.

**İsmayıl Qocayev**

**İsmayıl Qocayev**



# Ermənistanla sərhədlərin müəyyənləşməsi sülhdən öncə lazımdır

## Belə olarsa, təxribatlar da azalacaq, diversiya cəhdləri olmayacaq, atəşkəsin pozulması halları aradan qalxacaq

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi prosesindən danışıb. Nazir bildirib ki, komissiyaların formalaşdırılması özlüyündə mürəkkəb proses idi. XİN rəhbəri qeyd edib ki, Ermənistanın ilkin şərtləri var idi:**

“Onlar de-eskalasiya ilə bağlı tədbirlər və Azərbaycan hərbçilərinin sərhədlərdən çəkilməsini tələb edirdilər. Ancaq Azərbaycan öz mövqeyini ortaya qoydu. Hesab edirik ki, öz sərhədlərimizdə durmuşuq və sərhədlərimizi qorumaq bizim vəzifəmizdir. Bu prosesi mütəxəssislərin iştirakı ilə danışıqlar vasitəsilə tarixi, hüquqi sənədləri araşdırmaqla aparmaq lazımdır. Amma delimitasiya vaxt alan prosesdir. Buna hər hansı vaxt başlayıb və onu qısa zamanda tamamlamaq mümkün deyil. Azərbaycan və Ermənistan arasında münasibətləri nəzərə alsaq, bu, sadə proses olmayacaq, həssas məqamlar olacaq. Ancaq hesab edirik ki, komissiyanın özü artıq irəliləyişdir”.

**Nazirin açıqlamasını “Şərq”ə şərh edən politoloq Turab Rzayev də vurğulayıb ki, proses kifayət qədər çətindir. Analitik qeyd edib ki, Azərbaycanla Ermənistan arasında dövlət sərhədləri faktiki mövcud olmayıb:** “Ümumi formada dağlar, göllər, çaylar üzərindən “sərhəd xətti” olub, amma sovet dövründə konkret delimitasiya prosesi aparılmayıb. Ona görə də sərhədlərin müəyyənləşməsi sıfırdan başlayır. Bu da çoxlu problemlər yaradan məsələdir. Çünki normalda Azərbaycanın Rusiya və Gürcüstanla delimitasiya prosesləri uzun müddət çəkdi. Hələ də bəzi mübahisəli məqamlar qalmaqdadır. Ermənistanla isə vəziyyət daha mürəkkəbdir. Onsuz da ermənilərlə çoxlu problemlərimiz var. Ermənistan sərhəd məsələsində bir sıra əsassız iddialar irəli sürür və təxribatlara əl atır. Vaxtaşırı mənasız təkliflər irəli sürür, ordumuzun indiki mövqeyindən geri çəkilməsini, sərhəd xəttində qoşun hissələrinin olmamasını tələb edir. Halbuki, bizim istəyimiz başqadır. Çalışırıq ki, sərhəd tam müəyyən olunsun və orada Azərbaycan Ordusu, sərhəd qoşunları yerləşdirilsin. Ermənistan tərəfi hansısa təxribatlara cəhd göstərməsin. Sərhədlərin müəyyənləşməsində digər problemlər də mövcuddur. Məsələn, xəritələrlə bağlı da ziddiyyətli yanaşmalar var. Sovet vaxtı iki ölkənin sərhəd xətləri müxtəlif dairələrin təsiri ilə bir neçə dəfə dəyişdirilib. Hər iki tərəf öz maraqlarına uyğun variantı təklif etdiyi üçün prosesin irəliləməsi çətinləşir”.

**Ekspert vurğulayıb ki, sərhədlərin delimitasiyasının yekun sülhdən daha öncə reallaşması daha məqsədəuyğundur:** “Sülh prosesində müəyyən təkliflər gündəmə gəlir, müzakirələr davam edir. Bu proses uzandıqca, sərhəddə təxribatlar baş verə bilər. Sərhədlərin müəyyənləşməsi baş tutarsa, bunun özü sülhü yaxınlaşdıracaq ən mühüm addım olacaq. Sərhədlərin müəyyən olunmasından sonra təxribatlar da azalacaq, diversiya cəhdləri olmayacaq, atəşkəsin pozulması halları aradan qalxacaq. O baxımdan öncə bu məsələni yekunlaşdırmaq lazımdır”.

# Qazanc da artacaq, iş yerləri də...

## Qarabağda çalışan iş adamlarına tətbiq olunan yeni güzəştlər bölgəyə kapital axınını sürətləndirəcək

**Azərbaycanın azad edilmiş ərazilərində fəaliyyət göstərən iş adamları üçün bir sıra yeni güzəştlərin edilməsi nəzərdə tutulur. İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Elxan Şiriyevin sözlərinə görə, vergi və gömrük güzəştlərinin 15 ilə qaldırılması, bir sıra xam malların gömrük rüsumlarından azad edilməsi ilə bağlı məsələ gündəmdədir:**

**”Bu, işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarının cəlbediciliyini artıracaq”.**

Xatırladaq ki, hazırda sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azaddır. Bundan başqa, parkın rezidentləri idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Ekspertlər isə hesab edirlər ki, sahibkarların bölgəyə marağı və investisiya istəyi az deyil. Buna real şərait, zəmin və müvafiq çağırış da var. Sadəcə, müəyyən tərəddüdlər mövcuddur ki, bu da təbiidir. Birincisi, sahibkarlarımızın çoxunda qısamüddətli qazanc istəyi güclüdür, ikincisi, sözügedən bölgənin və ya iqtisadi rayonların potensialına dair ətraflı və çevik bilgi səviyyəsi qənaətbəxş həddə deyil, üçüncüsü, gizlində təhlükəsizliyə zəmanət istəyi mövcuddur, dördüncüsü isə qeyd olunan bölgədə biznes və sahibkarlıq fəaliyyəti üçün ola bilsin əlavə güzəştlər gözlənilir və s.

**İqtisadçı-ekspert Əyyub Kərimlinin ”Şərq” ə açıqlamasına görə, işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarında fəaliyyət göstərən sahibkarlar üçün vergi və gömrük güzəştlərinin 15 ilə qaldırılması, bir sıra xam malların gömrük rüsumlarından azad edilməsi həm iş adamlarının bölgəyə marağını artıracaq, həm də onların əməyini stimullaşdıracaq:** ”Bu həm də iş adamlarını işğaldan azad edilmiş ərazilərdə yeni iş yerlərini açmağa sövq edəcək. Nəticədə onların gəlirləri və maaşları artacaq və bu da görülən işin səmərəli olmasına, fəaliyyət istiqamətlərinin genişləndirilməsinə imkan yaradacaq”.



Ekspert işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarına yerli sahibkarların cəlb edilməsini təqdirəlayiq hal kimi dəyərləndirib. Onun sözlərinə görə, bu, bölgənin infrastruktur və investisiya imkanlarını genişləndirəcək, həm də bir sıra yeni iş yerlərinin açılmasına müsbət təsir göstərəcək. Sözügedən güzəştlər gələcəkdə bölgəyə digər sahibkarlıq subyektlərinin və investorların cəlbediciliyini təmin edəcək, kapital axınını sürətləndirəcək və nəticədə bölgənin iqtisadi rifahı yüksələcək.

**Ə.Kərimli hesab edir ki, Qarabağda kiçik və orta biznesin inkişafı bu yerlərdə daha da canlanmaya səbəb ola bilər. Əlbəttə ki, iri şirkətlərin fəaliyyəti vacibdir və onlar da məşğulluğun formalaşdırırılmasında böyük yer tuturlar. Lakin iqtisadi sistemin mərkəzində KOB-lar yer almalıdır**: ”Fikrimcə, sahibkarlar üçün işğaldan azad olunmuş ərazilərdə tekstil istehsal, kənd təsərrüfatı məhsulları tədarükü, eyni zamanda qida emalı, həmçinin müxtəlif növ xidmət sahələrində biznes qurmaq və fəaliyyət göstərmək imkanları var. Bundan əlavə, sadalanan sahələrdə hələ ki, rəqabət yoxdur, ona görə də, sərmayə qoyuluşunda birincilik daha çox qazanc gətirə bilər və gətirəcək”.

İqtisadçının sözlərinə görə, işğaldan azad olunmuş sərhədyanı ərazilərdə Azad iqtisadi zonaların tətbiqi də iqtisadi inkişafa müsbət effekt verər. Qarabağ bölgəsi İranla həmsərhəddir və Zəngəzur dəhlizinin üzərində yerləşir. Bu, gələcəkdə bölgəyə xarici investorların cəlb olunmasına zəmin yarada bilər.

**Şəymən Bayramova**



# Müharibə olmayacaq

## İrəvan yeni güzəştlərə gedəcək

İsmayıl Qocayev

**Azərbaycan-Ermənistan arasında növbəti müharibə olacağı ehtimalları səslənsə də, indiki şəraitdə reallıq səviyyəsi aşağıdır. Ən azından ona görə ki, sülh danışıqları davam edir və həlledici irəliləyişlər ictimaiyyətə açıqlanmasa da, pərdə arxasındakı dialoq iştirakçıları bundan xəbərdardır.**

Hərçənd, Azərbaycan Ermənistana qarşı hərbi əməliyyatları da istisna etmir və bunun üçün resurslarının mövcudluğunu göstərir. Bakının sərgilədiyi bu cür hərbi-siyasi davranış Azərbaycanın danışıqlarda mövqelərini bərkidir və Ermənistan növbəti kapitulyant güzəştlərə getməyə məcbur qalır.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanın istədiyi, əldə edilən razılıqlarla praktiki icra mərhələsində olan aralıq müddətində öhdəliklərdən yayınmaqdan ötrü manipulyativ "arqumentlər" toplamaqdır. Ekspertə görə, ancaq indi münaqişə yox, postmüharibə dövrüdür:** "Bakının hər keçən gün Ermənistana qarşı əli yeni şəraitə uyğun olaraq güclənir. Buna görə də Ermənistanın Bakının şərtlərini yerinə yetirməkdən başqa çarəsi mövcud deyil. Dövriyyədə olan bir çox informasiya və ya verilən bir çox bəyanat sadəcə həmin çarəsizliyi ört-basdır etməkdən ibarətdir. Vəziyyətdəki qara rəngləri şəffaflaşdırmaq üçün Azərbaycanla Ermənistan arasındakı 44 günlük müharibə ilə analogiya aparaq. Müharibədən öncə Ermənistan hər vəchlə danışıqları uzatmaq, status-kvonu qoruyub-saxlamaq və yeni ərazilər üçün yeni müharibəyə hazırlaşırdı.

Azərbaycan buna adekvat güc tətbiqi ilə cavab vermək zərurəti ilə üzləşdiyindən müharibə başladı və Bakı İrəvan üzərində həlledici qələbə qazandı. Ermənistanda indi də xam xəyallar mövcuddur, amma İrəvan rəsmi şəkildə Bakı qarşısında geri çəkilməkdə davam etdiyindən biz rəsmi mövqedəki duruşa diqqət etməliyik.

Ermənistan revanşizmə nəfəs vermək üçün çabalasa da, Azərbaycanın istər Naxçıvan, istər Laçın, istər Kəlbəcər istiqamətindəki hərbi mövqelərini möhkəmlətməsi, yeni sərhəddən Ermənistana baxışı İrəvanın cəhdlərini boşa çıxardır".

**A.Kərimov vurğulayıb ki, hərbi-siyasi, diplomatik danışıqların mənzərəsini sərhəddəki cari vəziyyət tamamlayır:** "Əgər Ermənistan situasiyanı özünün revanşist meyillərinin xeyrinə dəyişməyə cəhd göstərsə, Azərbaycan hərbi tədbirlər planını tətbiq etmək hüququndan yararlanacaq. Azərbaycanın danışıqlar masası üzərinə qoyduğu və ehtiyat planlarındakı "silah gücü" Ermənistanı Bakının mövqeyinə yaxınlaşdırır. Hər nə qədər Nikol Paşinyan üstünə əzmkarlıq və qətiyyətlilik pərdəsi çəkməyə çalışsa da, bu pərdəni Azərbaycan ordusunun atdığı bir neçə güllə asanlıqla qaldırır. Paşinyan özünü ifşa edən mövqeləri dilə gətirir.

> "Bakının strateji yanaşmasının məntiqi bundan ibarətdir ki, region beynəlxalq güclərin poliqonu statusuna yiyələnməsin"

Hətta Ermənistanın Zəngəzur dəhlizi (dəhliz rejimində) mövzusunda yeni razılıqlarının işartısı da var. Ən son məlumatlara əsasən, Ermənistan 5 marşrut üzrə dəhlizin reallaşması imkanlarını nəzərdən keçirir. Nə Azərbaycan, nə də Ermənistan erməni mediasının yaydığı bu iddia ilə bağlı cavab verməyib. Lakin nəzərə alaq ki, bu cür məlumatlar Ermənistan mətbuatına elə-belə yerə sızdırılmır.

Ən azından Nikol Paşinyan administrasiyasında bu fikir hakim kəsilib ki, əvvəl-axır Zəngəzur dəhlizi Bakının şərtləri altında açılmalıdır. Sülh gündəliyinin beynəlxalq elementlərlə formalaşdırılmasına gəlincə, burada da hər hansı neqativ tendensiyanın mövcudluğundan bəhs edə bilmərik. Açıq qalan məsələlərin həllində Türkiyənin, Rusiyanın səyləri birləşir və bir-biri ilə daban-dabana ziddiyyət təşkil edən forma vəziyyətinə gəlmir. Qərbə gəlincə, o, maksimum dərəcədə Rusiyanı oyundan kənarlaşdırmaq istəyir və bunu Azərbaycan-Türkiyə strateji müttəfiqlik maraqları ilə uyğunlaşdırmaq istəyir. Elə Kreml də Qərbi strateji tatamidən uzaqlaşdırmaqdan ötrü Bakı-Ankara ikilisinin mövqeyindən istifadə etməyə çalışır.

Qeyd etmək lazımdır ki, son zamanlar Azərbaycan ABŞ-ın sülh müqaviləsinin formalaşdırılması prosesindəki töhfəverici iştirakına çağırışlar edir, ancaq bunu Rusiyaya verilən kəskin mesaj kimi qəbul etmək də düzgün deyil".

*Həmsöhbətimiz hesab edir ki, Bakının strateji yanaşmasının məntiqi bundan ibarətdir ki, region beynəlxalq güclərin poliqonu statusuna yiyələnməsin:* "Rusiya-Ukrayna müharibəsi fonunda postsovet ölkələrinin hamısı üçün hər hansı formada təhdidlər yaranıb. Bu təhdidlər Azərbaycanı qorxutmasa da, Bakı ehtiyatı əldən vermir. Konfrontasiyaya getmək siyasətindən uzaqdır və situasiyanı öz xeyrinə çevirə bilmək üçün çevik imkanlara sahibdir. Ona görə də Cənubi Qafqazda ən çox düşünən ölkə Ermənistan olmalıdır. Çünki Azərbaycanın istər beynəlxalq münasibətlər sistemindəki yeri, istər hərbi gücü, istərsə Türkiyə ilə strateji müttəfiqliyi, istər Qərblə əlaqələri, istərsə də, Rusiya ilə münasibətləri dünya üçün yaranan təhdidlər fonunda Ermənistanın varlığını sual altına alar. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gəlincə, onların 5 ili tamam olunca, ərazilərimizdən çıxması real görünmür. Ancaq Azərbaycanın Ermənistan üzərində yaratdığı total təzyiq dalğası nəticəsində sülhməramlılara da ehtiyac qalmayacağı dəqiqdir. Ona görə İrəvan Rusiya kontingentinin Qarabağa dislokasiya edilən bölmələrinə ümid bəsləməkdən əlini üzməlidir. Nəticə etibarı ilə Azərbaycan-Ermənistan gündəliyində hazırda danışıqlar ön plandadır və qarşıda İrəvan yeni güzəştlərə gedəcək. Razılıqların icrasında axsamalar olsa, Bakı hibrid müharibəni qısamüddətli hərbi əməliyyatlarla gücləndirəcək. Qərb Rusiyanı Cənubi Qafqazdan kənara atmağa çalışsa da, bunun praktiki gerçəklik dozası çox aşağı olacaq".

# Erməni deputatlarla görüşün keçirilməsi vacibdir

## "Bu bizə müxtəlif platformalarda haqlı olduğumuz mövqeləri əsaslandırmağa imkan yaradır"



**Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze Böyük Britaniyanın Birminqem şəhərində keçirilən ATƏT Parlament Assambleyasının (PA) sessiyasının son iclasında çıxış edib. O, Azərbaycan və Ermənistan deputatlarının Tbilisidə görüşünün keçirilməsini təklif edib.**

Cənubi Qafqazda sabitlik və əmin-amanlığın əhəmiyyətindən danışan komitə sədri bölgədə sülhün təmin olunmasında Gürcüstanın sabitləşdirici rol oynamağa hazırlığını ifadə edib. Samxaradze bildirib ki, Sülh dialoqunun təşviqi məqsədilə azərbaycanlı və erməni həmkarlarımızı Tbilisidə qəbul etməyə hazırıq.

Xatırladaq ki, N.Samxaradze Gürcüstanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəridir. O, PA-nın sessiyası çərçivəsində qurumun Demokratiya, İnsan haqları və Humanitar məsələlər üzrə Komitəsinin sədri seçilib.

**Təklifi "Şərq"ə dəyərləndirən millət vəkili Razi Nurullayev bildirib ki, Azərbaycan bütün platformalarda ermənilərlə danışıqlar aparmağa hazırdır:** "Ölkəmiz regionda sülhə nail olmaq istədiyini dəfələrlə qeyd edib. Təbii ki, bütün görüşlərin bir faydası olur. Biz bütün platformalarda iştirak edirik və danışıqlar aparırıq.

Lakin Ermənistan bu kimi vəziyyətlərdə cığallıq edir. Bu proses beynəlxalq təşkilatların gözləri önündə baş verir. Bu hal Azərbaycana ixtiyar verir ki, haqqı olanı zor gücü ilə əldə etsin. Hesab edirəm ki, bu cür görüşlərin keçirilməsi vacibdir.

Bu cür görüşlər Azərbaycanın apardığı siyasətin tərkib hissəsidir ki, bu bizə müxtəlif platformalarda haqlı olduğumuz mövqeləri əsaslandırmağa imkan yaradır".

**Nihat Müzəffər**

# Nazirlik artıq infrastrukturu qurub

## Əhaliyə sürətli internet veriləcək



Nihat

**Azərbaycanda bir neçə internet tarifi ləğv edilir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (RİNN) məxsus "Aztelekom" MMC avqustun 6-dan etibarən 4 mbit/s və 10 mbit/s optik internet tariflərini ləğv edir. MMC-dən verilən məlumata görə, bu tariflərin istifadəçiləri üç qat daha sürətli olan 15 mbit/s və 30 mbit/s tarif paketlərinə keçiriləcək.**

Azərbaycanda provayderlərin internetin sürətini zəif, qiymətini isə baha təklif etməsi əhali tərəfindən narazılıqla qarşılanır. Sosial şəbəkə istifadəçiləri qeyd edirlər ki, texnologiyanın inkişaf etdiyi bir zamanda internetin sürətinin zəif olması qəbulolunmazdır.

**Nazirlik tərəfindən sürətli internet paylanması üçün infrastrukturun qurulduğunu deyən "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə bildirib ki, bu hadisəni Azərbaycanda yüksək keyfiyyətli internetə keçid kimi dəyərləndirmək olar:** "Yarım il bundan öncə RİNN yeni bir layihəyə start vermişdi. Sözügedən layihə, Bakı şəhərində və regionlarda dövlət özəl tərəfdaşlığı ilə GPON texnologiyası ilə internetin əldə olunması ilə bağlıydı. GPON texnologiyası bütün Azərbaycan üzrə geniş zolaqlı, yüksək keyfiyyətli və sürətli internetə əlçatanlığı təmin edir. Burdan belə nəticə çıxarmaq olar ki, artıq nazirlik infrastrukturu qurub.

Belə bir təklif irəli sürülüb ki, kim zəif sürətlər alırdısa bir-iki aydan sonra onlara daha yüksək sürət veriləcək.

Hesab edirəm ki,15 mbit/s və 30mbit/s yetərincə yüksək sürətlərdir və bununla indiki mərhələdə razılaşmaq olar. Yeni sürətə keçidlə bağlı ümid edirəm ki, qiymətlər sərfəli və cəlbedici olacaq".




# Əvvəlki sərt karantin rejimi olmayacaq

## Koronavirus qrip xəstəliyi kimi aramızda uzun illər yaşayacaq

Çimnaz Şahlar

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) uşaqlar arasında meymunçiçəyi xəstəliyinə yoluxma hallarını qeydə alıb. Bu barədə ÜST-nin nümayəndəsi Rozamund Lyuis brifinq zamanı bildirib.**

Onun sözlərinə görə, bu gün meymunçiçəyinə yoluxma aşkarlanan uşaqların təxminən üçdəbiri 10 yaşınadək, yarısı isə beş yaşınadək uşaqlardır. Lyuis qeyd edib ki, çox güman ki, kiçik uşaqlar xəstəliyə evdə yoluxurlar. 18-19 yaşlı xəstələr arasında meymunçiçəyi xəstəliyinin yayılması məsələsi hələ də aktuallığını itirməyib.

Həmçinin koronavirusa yoluxma hallarında yenidən artım müşahidə olunur. Ötən günə olan statistik göstəricilərə görə, koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb. Hazırda 287 aktiv xəstə var.

Yeni vüsət almış meymunçiçəyi virusu və getdikcə artan koronavirus yoluxmaları növbəti qapanmalarla bağlı ehtimal formalaşdırır.

**Vəziyyəti dəyərləndirən həkim-psixoterapevt Əli Nağıyev "Şərq"ə bildirib ki, yenidən sərt karantin rejiminə keçmək məqsədəuyğun deyil:** "Bu, ölkəmizə iqtisadi cəhətdən ciddi zərbə ola bilər. Lakin fikrimcə, müəyyən məhdudiyyətlər tətbiq edilə bilər. Meymunçiçəyi virusunun yoluxma qaydası koronavirusun yoluxma qaydasından tamamilə fərqlidir. Bu infeksiya daha çox sıx kontaktda olan zaman yayılır. Meymunçiçəyi virusunun şiddətli vüsət alıb, geniş yayılacağını hesab etmirəm".

**Ə.Nağıyevin sözlərinə görə, koronavirus tədricən qrip kimi bir xəstəliyə çevriləcək:** "Zamanla ağırlaşmaların sayı azalacaq. Yeni dalğa ola bilər. Amma bu artıq tanış olduğumuz infeksiyadır. Çünki immunitetimiz ona qarşı müəyyən qədər müqavimət əldə edib. Virus da öz xarakterini dəyişməyə başlayıb, öz sahibini öldürməməyə can atır. Ona görə qripə bənzər bir xəstəlik kimi aramızda uzun illər qalacaq. Yəqin ki, ona öyrəşməliyik. Amma əvvəlki kimi sərt karantin rejimi olacağını ehtimal etmirəm".

# İrəvandakı 11 məsciddən 10-u yer üzündən silinib

## Boran Əzizli: "Tarixi irsimizin erməni vandalizminin qurbanına çevrilməsi çox ağrılıdır"

**Qədim Azərbaycan şəhəri İrəvan və onun əsas məhəllələrindən olan Təpəbaşıda ermənilər xalqımıza məxsus irsi sistemli şəkildə dağıtmağa başlayıblar və bu proses indi də davam edir. Hazırda Təpəbaşı məhəlləsi tamamilə məhv olmaq təhlükəsi ilə üz-üzədir. O baxımdan Azərbaycan ictimaiyyəti bununla bağlı UNESCO-ya müraciət ünvanlayıb.**

Müraciəti imzalayan 102 nəfər tanınmış elm və ictimaiyyət xadimi UNESCO-nu xalqımızın zəngin tarixi-mədəni irsinin ermənilər tərəfindən məhv edilməsinin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırıb. Təpəbaşı məhəlləsindəki məscidlər, hamamlar onun Azərbaycan xalqına məxsus memarlıq irsi olduğunu sübut edir. Həmin məhəllənin əhalisinin əsas hissəsinin türk-müsəlman əhali olması 1831-ci ilə məxsus kameral təsvirdən aydın görünür. Həmin təsvirdən çıxarış bizə bunu deməyə imkan verir ki, Təpəbaşı məhəlləsi İrəvanın qərb hissəsini əhatə edirdi. 1831-ci ildə İrəvan şəhərinin Təpəbaşı hissəsində tatarlardan, yəni Azərbaycan türklərindən ibarət 594 ailə qeydə alınmışdı. İrandan köçürülən ermənilər Təpəbaşı hissəsində 87 ailədən ibarət idi. Təpəbaşı məhəlləsində Hüseynəli xan məscidi və Hacı İmamverdi məscidi göstərilib. Bu məscidlərdən başqa, bir neçə də uçmuş məscidlər var ki, onlar qeyd olunmayıb. Təpəbaşı məhəlləsində 1831-ci ildə 5 hamam olub. XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi. XIX əsr boyunca ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsinə baxmayaraq, İrəvan şəhərinin əhalisinin etnik tərkibində yenə də azərbaycanlıların üstünlük təşkil etdiyi aydın görünür. Ermənistan dövləti Təpəbaşıda yerləşən Hacı İmamverdi (Təpəbaşı) məscidinin tarixini saxtalaşdıraraq fars məscidi kimi dövlət qeydiyyatına alsa da, abidənin qorunması ilə bağlı heç bir tədbir görülməyib. Onun uçulub dağılmasına şərait yaradılıb. Uzun illərdir, Təpəbaşı hissəsinin taleyi ilə bağlı erməni ictimaiyyəti ilə Ermənistan dövləti arasında müzakirələr getməkdədir. Lakin bütün bu müzakirələrdə Azərbaycan xalqının maddi-mədəni irsi məhvə məhkum edilir. Ona görə də artıq həyəcan təbili çalmağın vaxtıdır. Ümid edək ki, UNESCO rəhbərliyi ona ünvanlanan müraciətə etinasız qalmayacaq və Təpəbaşı məhəlləsinin erməni vandalizmindən xilas olmasına öz köməyini göstərəcək.



> "Çalışmaq lazımdır ki, salamat qalmış iki-üç abidəmizi beynəlxalq təşkilatların vasitəsilə də olsa himayə edək, qoruyub saxlayaq. Azərbaycan ziyalıları, elm adamları da bu işə dəstəklərini verməlidirlər"

**Tarixçi-alim Boran Əzizli "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın qədim yaşayış məskənlərindən biri də İrəvan şəhəridir. Alim bildirib ki, İrəvan şəhəri və onun ətrafında olan xalqımıza məxsus tarixi abidələrlə bağlı 1920-30-cu illərdə Ermənistanda çap olunmuş əsərlərdə məlumatlar verilmişdi:** "1936-cı ildən etibarən toponimlər kütləvi surətdə ləğv edilməyə başlandı. Ermənistandakı memarlıq abidələrimizin məhv edilməsi istiqamətində fəaliyyətə keçdilər. Təkcə İrəvanda 11 məscid var idi. Ancaq onlardan 10-u yer üzündən silinib. Bugünə salamat qalan yeganə abidə vaxtı ilə Səfəvi şahlarının göstərişi ilə tikilmiş Göy məsciddir. Əfsuslar olsun ki, Göy məscid də qonşu İran tərəfindən mənimsənilib. Ermənistan tərəfi həmin məscidi "İran məbədi" kimi təqdim edib. Halbuki, bütövlükdə İrəvanda, istər Çuxursəd bəylərbəyliyi, istərsə də xanlıq dövründə orada bir nəfər fars yaşamayıb. Göy məscid hardan "İran abidəsi" oldu?!".

**Tarixçi qeyd edib ki, İrəvan şəhəri iki hissədən ibarət idi:** "Şəhər İçərişəhər (Qala) və Bayırşəhər adlanan hissələrə bölünmüşdü. Bayırşəhərin də özünün üç böyük məhəlləsi vardı. Bunlar Əskişəhər (Köhnə şəhər), Dəmirbulaq və Təpəbaşı adlanırdı. Maraqlıdır ki, ermənilər bir dəfə də olsun bu ərazilərdə arxeoloji qazıntılar aparmayıblar. Həmin məhəllələr arasında günümüzə gəlib çatan sadəcə Təpəbaşıdır. Ermənilər bütün gücləri ilə həmin məhəlləni silmək, yox etmək üçün çalışırlar".

**B.Əzizli vurğulayıb ki, Təpəbaşı məhəlləsini Əskişəhərdən fərqləndirən əsas xüsusiyyət orada İrəvanın adlı-sanlı adamlarına məxsus geniş bağların olmasıydı:** "Bağların biri Hüseynqulu xana məxsus idi. İrəvanda mövcud olmuş məşhur 4-5 dükanın hamısı Təpəbaşı məhəlləsində yerləşirdi. Şəhərdəki 10 hamamdan 5-i Təpəbaşı məhəlləsindəydi. Məsələn, bunlara Hacı Bəyim hamamı, Hacı Əli hamamı, Hacı Fətəli hamamı, Şeyxülislam hamamını misal göstərmək olar. Hamamların çoxluğu da azərbaycanlıların təmizliyə nə qədər çox diqqət yetirdiklərinin göstəricisidir. Əlbəttə, tarixi irsimizin erməni vandalizminin qurbanına çevrilməsi çox ağrılıdır. Ona görə də çalışmaq lazımdır ki, salamat qalmış iki-üç abidəmizi beynəlxalq təşkilatların vasitəsilə də olsa himayə edək, qoruyub saxlayaq. Azərbaycan ziyalıları, elm adamları da bu işə dəstəklərini verməlidirlər".

**İsmayıl Qocayev**

# Əfsanə bitdi

## Boris Conson getdi, dalğa hələ qabaqdadır



“İngiltərə baş nazirinin istefası Ukrayna müharibəsi və dünyanın yenidən bölüşdürülməsi savaşı fonunda maraqlı hadisədir”

İsmayıl Qocayev

**Böyük Britaniyanın Baş naziri Boris Conson istefa verib. O, bu barədə xalqa müraciətində bildirib: ”Bizə indi sakitlik və birlik lazımdır. Mən yeni lider seçilənə kimi vəzifəmi icra edəcəyəm”.**

Qeyd edək ki, Mühafizəkarlar Partiyası yeni liderin və yeni baş nazirin təyin olunması tələbi ilə çıxış edib. Son günlər Böyük Britaniya çalxantılı dövrünü yaşayır. Qısa müddətdə bir çox nazir istefa verib. Üç gün ərzində ölkənin Maliyyə naziri Rişi Sunak, Səhiyyə naziri Sacid Cavid, Uşaq və ailə naziri Vill Kuins, Nəqliyyat nazirinin müavini Laura Trott və Məktəb naziri Robin Valker vəzifəsindən uzaqlaşıb. Ümumilikdə isə 27 məmur hökuməti tərk edib. Son olaraq Baş nazir Boris Conson istefa verdiyini açıqlayıb. Boris Conson təkcə Britaniya üçün yox, bütün dünya üçün əhəmiyyətli lider idi. 2001-ci ildən siyasətdə olan Conson 2006-cı ildə ölkənin xarici işlər naziri vəzifəsinə təyin olunub. 2019-cü ildən isə baş nazir vəzifəsini icra edirdi. Həmin vaxtdan bu yana ölkəsinin inkişafı, potensialının artması üçün mühüm işlər görüb. Buna rəğmən son vaxtlar Londonda siyasi böhran hökm sürürdü və yerli media, o cümlədən müxaliflər buna görə hökumət başçısını suçlayırdı.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında bildirib ki, İngiltərədə yaşanan kabinet böhranı daxili səbəblərdən qaynaqlanır. Lakin analitikə görə, bu istefanı Ukrayna müharibəsi və dünyanın yenidən bölüşdürülməsi savaşı fonunda şərh etmək lazımdır:** ”Madrid zirvəsində NATO yeni - əsas hədəfini rəsmiləşdirdi. Bu hədəf Çin oldu. 2021-ci ilin dekabrında başlanan Rusiya və ABŞ-NATO qarşıdurması və Ukraynada davam edən müharibənin nəticəsinə baxdıqda da yeni dünyanın qurulması mübarizəsini oxumaq mümkündür. ABŞ və Çinin iki əsas qütb olacağı yeni dünyada Rusiya yalnız ”dünya gücü” kimi yox, regional güc olaraq qəbul olunur. Yeni dünya ABŞ-ın təkqütblü güc olduğu nizamın dağılması, başqa sözlə, Amerika hegemonluğunun sıradan çıxması perspektivini vəd edir. Bunu təkqütblü gücünü itirmək istəməyən ABŞ da istəmir. ”Dünya gücü” kimi qəbul edilmək istəyən Rusiya da. Rusiya Ukraynaya hücumla Çini yeni dünya gücü, ən azından ”ikinci əsas qütb” edəcək layihənin (BRİ) önünü kəsir. Həm də ABŞ-a NATO-nu gücləndirmək, Avropada köhnə müttəfiqləri yenidən öz orbiti ətrafına birləşdirmək imkanı yaratdı. Bu, yeni dünyada Avropanı güc mərkəzinə çevirməyə çalışan, bunun üçün ”Avropa ordusu” yaratmağı planlaşdıran Almaniya, Fransa, İtaliya kimi ölkələrin də yolunu bağlayırdı. Müharibə ilə Qərb cəbhəsinin birləşməsinə kömək edən Rusiya da ona biçilən ”regional güc” donunu geyinməkdən imtina edir, yaxud qarşılığında bu mövqeyi qəbul olunur. Boris Conson Avropada Ukraynaya dəstəyi təşkil edən əsas fiqur idi. Bu, ABŞ-NATO cəbhəsi ilə uzlaşan mövqedir. Amerika Avropanı NATO çətiri altında birləşdirmək və Çinin səddin arxasında qalmasını istəyir. Lakin ingilislər müharibənin Rusiyanın ”dünya gücü” kimi qəbul edilməsi ilə nəticələnməsinə qarşıdır. Uzlaşan mövqe Ukrayna müharibəsinin necə bitəcəyi məsələsində toqquşur. Müharibə Avropanın öz orbitinə qayıtmasına və Qərb cəbhəsini strateji hədəf - Çinə qarşı birləşdirənə qədər davam etməli idi. Conson müharibənin Rusiyanın ”regional güc” rolunu qəbul edənə qədər davam etməsini istəyirdi. Madrid zirvəsində NATO istəyinə nail oldu. Artıq müharibə bitməli, Rusiyanın mövqeyi bu və ya digər formada qəbul edilməlidir. Ancaq Consonun arxasındakı dəstək buna imkan vermirdi. Prosesin uzanması, xüsusilə enerji və taxıl böhranı Avropada Vaşinqtona qarşı çağırışları yenidən aktuallaşdırırdı”.

**A.Nərimanlıya görə, proseslərə bu kontekstdə yanaşdıqda Consonun istefaya məcbur edilməsi və bunun məhz Çinin rəsmi şəkildə rəqib elan edildiyi Madrid zirvəsindən sonra baş verməsi məsələnin daxili səbəblərilə yanaşı, geosiyasi savaşın tərkib hissəsi olduğu ehtimalını da önə çıxarır:** ”Conson istefasına rəğmən, Ukraynaya dəstəyin davam edəcəyini deyir. Hərçənd, kabinet böhranı, yeni seçkilər diqqətin daxili proseslərə yönəlməsinə səbəb olacaq. Bu, Ukrayna cəbhəsindəki vəziyyəti də dəyişdirə bilər. İstisna deyil ki, qarşıdakı dövrdə Qərb cəbhəsində Ukraynanın Rusiya ilə masaya əyləşməsi istəyi daha sıx dilə gətiriləcək”.

**ReAL partiyasının sədr müavini Natiq Cəfərli isə qeyd edib ki, Boris Consonun istefası və Böyük Britaniyaya yeni baş nazirin seçilməsi bu ölkənin Rusiyaya qarşı siyasətini kökündən dəyişməyəcək. Amma bütün Qərb ölkələrinə dərs olacaq ki, öz yanlış siyasətlərini Rusiyanın aqressiyası ilə ört-basdır etməsinlər:** ”Son illər Qərbdəki liderlik böhranı, ”kovid-faşizm” kimi yeni fenomen, ağılsız qapanmalar, iqtisadiyyatın göz görə-görə çökdürülməsi bəşəriyyəti böyük iqtisadi durğunluqla üz-üzə qoydu. Ağılla, strateji baxışla görülməli olan işlər arxa plana keçirildi. Nəticədə Rusiya və Çin kimi ölkələr gücləndi, Qərb isə yeni model axtarışında yolunu azdı. Cəmi 15 il öncə Almaniya kimi ağıllı sistemi, cəmiyyəti olan ölkə məntiqsizcəsinə ”yaşıl, bərpaolunan enerji” keçidinə getməklə atom elektrik stansiyalarını bağladı. Halbuki, AES-lər ekoloji ziyanlı deyil. Almaniya Rusiya qazından və neftindən o qədər asılı vəziyyətə düşdü ki, indi tərpənə bilmirlər. Rusiya isə bu mövzunu qəsdən gündəmdə saxladı. Avropanın ”yaşıllarına” və ”millətçilərinə” açıq-gizli maddi dəstək göstərdi ki, mövzu aktuallaşsın. Avropanın Rusiyadan asılılığı artsın. İndi də Qərb ölkələri Rusiyanın neft-qazına məhdudiyyətlər qoyur. Nəticədə öz ölkələrində qiymətlər artır, inflyasiya partlayır, əhali narazı qalır. Rusiyanın taktikası və strategiyası böhranı dərinləşdirərək Avropa və ABŞ-ı daha pis vəziyyətə salmaqdır. Qərbin ən güclü yeri də, ən zəif nöqtəsi də eynidir - demokratiya və seçki”.



**”44 günlük müharibədən öncə də ermənilərin əsas hücumu, təxribatı məhz Tovuz istiqamətində olmuşdu”.**

**Bu sözləri ”Şərq”ə AĞ Partiyanın sədri Tural Abbaslı deyib. Rusiyanın Ermənistan-Azərbaycan sərhədinin Tovuza yaxın bölgəsində hərbi baza yerləşdirməsi iddiası ilə bağlı danışan partiya rəhbəri qeyd edib ki, Azərbaycanın Qərbə gedən önəmli strateji yolları, dəmiryol xətləri, neft kəmərləri Tovuz rayonundan keçir:** ”Tovuz kommunikasiya baxımından Azərbaycan üçün xüsusi önəm kəsb edir. Böyük ehtimal ki, məhz bu məqamlarla bağlı rəsmi Bakıya təzyiq göstərmək üçün Ermənistanın Ayqepar kəndində rusların iştirakı ilə tikinti işləri aparılır. Orada rus bazasının olacağı ilə bağlı iddialar var. Hər halda kifayət qədər narahatedici faktordur. Düşünürəm ki, bu məsələdə Azərbaycan hərbi-strateji baxımdan adekvat addımlar atmalıdır. Həmin ərazidə hərbi birləşmələrimizin, sərhəd xidmətinin daha da gücləndirilməsi istiqamətində işlər görülməlidir. Mümkün təxribatların dərhal və kəskin formada qarşısının alınması üçün lazımi addımlar atılmalıdır. Eyni zamanda da Rusiya və Ermənistanın regiondakı vəziyyəti daha da gərginləşdirməsi üçün atdığı addımları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq lazımdır. Dünya ictimaiyyətini də bu məsələdə Moskva və İrəvana qarşı səfərbər etməliyik. Əgər birbaşa Kremlə və İrəvana ”niyə sərhəd yaxınlığında hərbi baza tikirsiz” deyə bilmiriksə, Türkiyə kimi müttəfiqlərimizlə birgə zəruri mesajlarımızı qarşı tərəfə çatdırmalıyıq. Cavabsızlıq erməniləri və rusları daha da həyasızlaşdıra bilər”.

# Tovuz yaxınlığında hərbi bazanın salınması narahatedici faktordur

## Dünya ictimaiyyətini bu məsələdə Moskva və İrəvana qarşı səfərbər etməliyik

İsmayıl

# "Diqqəti İrəvanın qədim Azərbaycan torpağı olduğuna yönəltməliyik"

## Nəsiman Yaqublu: “Ermənistan Təpəbaşı məhəlləsinin məhv edilməsinə cavab verməli, təzminat ödəməlidirlər”



**”Ermənilərin İrəvanda törətdiyi cinayət bəşəriyyətin gözü qarşısında baş verir. Həmin məkanlardan foto, video və görüntülər var, inkar etmək qeyri-mümkündür. Tarix boyu ermənilər cinayətlər törədiblər, müxtəlif yollarla ört-basdır etməyi bacarıblar. Amma bu gün İrəvanda azərbaycanlıların yaşadığı qədim məskən Təpəbaşı məhəlləsi dağıdılır”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu deyib. Azərbaycan mədəniyyəti üçün xüsusi əhəmiyyət daşıyan Təpəbaşı məhəlləsinin taleyi ilə bağlı danışan tarixçi-alim bildirib ki, ictimaiyyətin hadisəyə verdiyi reaksiya güclüdür: ”Eyni zamanda, beynəlxalq təşkilatlara müraciətlərimizin sayını artırmalıyıq. Birləşmiş Millətlər Təşkilatının müxtəlif beynəlxalq qurumlarındakı nümayəndələrimiz fəallıq göstərməlidirlər. Ermənilər yalnız hərb yolu ilə cinayət törətməyiblər. Azərbaycanın bölgələrində ermənilərin törətdiyi cinayətlər, qədim abidələrimizin dağıdılması, məscidlərimizin təhqir edilməsi ilə yanaşı müharibənin getmədiyi bir ərazidə, yəni İrəvanda Təpəbaşını məhv etməyə çalışırlar.

Onlar mədəni abidələrə qarşı soyqırımın cavabını verməli, təzminat ödəməlidir. Biz həmçinin ermənilərin Qarabağda törətdiyi cinayətlərə görə, onların təzminat ödəməsi məsələsini daha da aktivləşdirməli, gündəmə gətirməliyik. Toplumu isə İrəvanın Azərbaycan torpağı olduğuna yönəltməliyik. Bura azərbaycanlıların qədim yaşayış məskənidir. Təpəbaşının dağıdılmasında məqsəd izləri itirməkdən ibarətdir”.

Qeyd edək ki, Azərbaycanın elm və ictimaiyyət xadimləri Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində Azərbaycan xalqının irsinə qarşı həyata keçirilən mədəni soyqırımı ilə bağlı UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlayıblar. Müraciəti 102 nəfər tanınmış elm və ictimai xadim imzalayıb. Onların arasında tarixçi-alim Nəsiman Yaqublu da var.

Aygün Tahir

# Orduda intihar hallarına ciddi yanaşılmalıdır

## Komandirlər əsgərləri dinləməli, onlarla söhbətlər aparmalıdır



**Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Tağıyev Rəvan Zeynalabdin oğlu ona təhkim edilmiş avtomat silahdan atəş açaraq özünü öldürüb.**

”Unikal”ın əldə etdiyi məlumata görə, R.Tağıyev Yevlax rayonunun Salahlı kəndindəndir. Onun hərbi xidmətini başa vurmasına 3 ay qalıbmış.

Rəvanın özündən böyük bir qardaşı da var. Böyük qardaşı yenicə hərbi xidmətdən qayıdıb. O, Naxçıvanda xidmət edib. R.Tağıyevin nəşi bu gün doğulduğu Salahlı kəndinə gətirilib və orada dəfn olunub.

**Orduda baş verən intiharların səbəblərindən və bu problemin çıxış yollarından danışan hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında bildirib ki, ordu kifayət qədər geniş heyətə malikdir:**

”Burada insanların fəqli xarakterləri və xüsusiyyətləri ola bilir. Təbii ki, orduda intihar hallarının baş verməsi heç kim üçün qəbuledilən və xoş hadisə deyil.

Bu kimi hallar intizamla, hərbçinin daxili aləmi ilə, aldığı xəbərlərlə, ailəsində baş verən dəyişikliklərlə, şəxsi həyatında mövcud olan problemlərlə bağlı ola bilər. İstənilən halda bu hadisələr araşdırılmalı və analiz olunmalıdır. Bu statistikaları əldə etdikdən sonra biz nə isə deyə bilərik.

Amma orduda intiharların qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir. Lakin düşünmürəm ki, bunlarla bağlı ölçülər götürülmür. Ancaq hər bir halda biz istərdik ki, bu barədə rəsmi statistikalar dərc olunsun və ictimaiyyət bu haqda məlumatlı olsun. Ordu bölmələrində nizam-intizam kifayət qədər yüksək səviyyədədir. Amma ayrı-ayrı çatışmazlıqların mövcud olduğunu vurğulamalıyam”.

Ekspert hərbi qulluqçulara səslənib, onları belə addımlardan çəkinməyə çağırıb: ”İntihar heç bir problemi həll etmir. Əksinə, mövcud olan problemləri daha da dərinləşdirir. Şəxsin ailəsində və yaxınlarında böyük kədər hissi yaradır.

Odur ki, hərbçilərimiz, o cümlədən vətəndaşlarımız problemlərin həllini bu yolda axtarmasınlar.

Hərbi qulluqçılar çətin vəziyyətlərdə komandirlərə, rəhbər şəxslərə müraciət etsinlər, problemlərini onlarla bölüşsünlər.

Komandirlər isə daim şəxsi heyətlə fərdi söhbətlər aparmalı, onların daxili aləmlərinə nüfuz etməli, problemlərini bilməlidirlər. Hər bir əsgər fərdidir və hər bir əsgərin daxili aləmi fərqlidir.

Bütün bunları diqqətdə saxlamalıyıq. Belə məsələlərə diqqət azalarsa, o zaman təbii ki, ağır fəsadlar qaçılmaz olacaq”.

Çimnaz Şahlar



# Moskvaya şansı vermək olmaz

## Kiyevdə anlamalıdırlar ki, Türkiyə-Ukrayna münasibətlərinin soyuması birinci növbədə Kremlin maraqlarına cavab verir

**Ukrayna hökumətinin Türkiyəyə münasibəti bir qədər dəyişib. Kiyev şübhələnir ki, Rusiya Ukraynadan oğurladığı taxılı Türkiyənin limanlarına daşıyır və guya, Ankara buna göz yumur.**

Bu məsələ ilə bağlı Türkiyənin səfiri Ukrayna Xarici İşlər Nazirliyinə çağrılıb. Ukraynanın Türkiyədəki səfiri də son zamanlar iki ölkə arasındakı münasibətlərdə suallar yaradan məqamlara toxunub.

**“Atlas” Araşdırmaları Mərkəzinin rəhbəri Elxan Şahinoğlu “Şərq”ə bildirib ki, Qərb ölkələri Ukraynaya silah və hərbi texnika satmadığı dönəmdə Ankara Kiyevə əlini uzatdı. Bu ölkəyə pilotsuz uçuş aparatlarını satdı:** “Ukraynaya humanitar yardım məsələsində də Türkiyə o biri ölkələrdən geri qalmadı. Türkiyə Ukrayna taxılının təhlükəsiz şəkildə dünya bazarlarına çatdırılması məsələsində vasitəçiliyini təklif edib. Ankara Krımın ilhaqını birmənalı şəkildə tanımır və türkiyəli rəsmilər bunu hər dəfə vurğulayırlar. Buna baxmayaraq, Türkiyə Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmayıb, bunun siyasi və iqtisadi səbəbləri barədə dəfələrlə yazılıb və deyilib. Kiyevdə anlamalıdırlar ki, Türkiyə-Ukrayna münasibətlərinin soyuması birinci növbədə Kremlin maraqlarına cavab verir və Moskvaya belə şansı vermək olmaz. Ukraynanın internet kanallarından biri məndən müsahibə götürərkən belə bir sual verdi: “Azərbaycan Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşula bilərmi?”. Azərbaycan-Rusiya münasibətlərində ciddi sualların olduğunu detalları ilə anlatsam da, Azərbaycanın Rusiyaya qarşı sanksiyalara qoşulmasının mümkün olmadığını izah etdim. Azərbaycan Rusiyaya qarşı sanksiyalara qoşularsa avtomatik şimal qonşusu ilə münasibətlərin daha da gərginləşməsinə yol açacaq. Gürcüstan NATO və Avropa Birliyinin üzvü olmaq istəyir, ancaq Tbilisi belə Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmayıb. Türkiyə və Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, simpatiyalarımız işğala qarşı mübarizə aparan Ukrayna tərəfdədir, ancaq Kiyevdə anlamalıdırlar ki, Türkiyə və Azərbaycan milli və təhlükəsizlik maraqlarından kənara çıxa bilməzlər”.

İsmayıl

# Maşınlar çox, pul qədri bilən yox...

## Parklanmadan ildə 540 milyon manat gəlir götürmək olar



**”Müşahidələrimiz göstərir ki, hansısa sahibkar və müəssisə tərəfindən qanunsuz parklanma yerinin yaradılması şəhərsalma konsepsiyasında dayancaq probleminin vaxtında həll edilməməsindən qaynaqlanır. Təəssüflər olsun ki, bu günə qədər istər paytaxtda, istərsə də regionlarda bununla bağlı konkret konsepsiya hazırlanmayıb. Fikrimcə, bunun əsas səbəbi adıçəkilən sahədə məqsədli şəkildə pərakəndəlik yaratmaqla bəzi işbazlara əlavə qazanc gətirməkdir”.**

*Bu barədə ”Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai Birliyinin sədri Vüqar Tofiqli ”Şərq”ə paytaxtın mövcud parklama problemi haqqında danışarkən bildirib. O qeyd edib ki, hazırda ölkədə kifayət qədər avtomobil var və bunların hər biri gündəlik olaraq dayanacaqdan istifadə edir:* ”2019-cu ildə Azərbaycanda nəqliyyat vasitələrinin sayı 1.418.404 ədəd olub. Dövlət Statistika Komitəsinin hər il açıqladığı statistikalara görə, hələ 2015-ci ildə Bakıda 728.706 avtomobil qeydiyyatdan keçib. Belə təxmin etmək olar ki, hazırda paytaxtda bu rəqəm 1.5 milyona çatıb. Hər avtomobil sahibi gün ərzində dayanacaqdan istifadəyə görə bir manat xərcləsə, gündəlik 1.5 milyon manat, aylıq 45 milyon, illik isə 540 milyon manat edir. Demək, sahənin bu gün pərakəndə və ”sahibsiz” qalmasının kökündə məhz bu məqam və bu rəqəm dayanır. Problemin həlli də ilk olaraq burdan başlanmalıdır”.

**V.Tofiqli hesab edir ki, qanunsuz parklamanın həll yolu ümumi konsepsiyadan keçir:** ”Yəni sahənin de-fakto ”sahibsiz qalması” nəticədə sahibkara özünəməxsus problem yaradır və nəticə etibarilə ”həyatını” təhlükə qarşısında qoyaraq parkinqi özü yaratmağa cəhd edir. Paytaxtın dayanacaq problemi bu gün hər kəsi narahat edir və narahat da etməlidir. Gündəlik həyatda istifadə etdiyimiz avtomobili saxlamağa demək olar ki, yer tapmırıq, günün xeyli bir hissəsi də məhz maşını saxlamağa gedir. Baxmayaraq ki, son illərdə yeraltı və yerüstü dayanacaqlar inşa edilir və edilməkdədir. Ancaq avtomobillərin say çoxluğu, sahənin idarəetməsindəki pərakəndəlik, sahə uğrunda gedən mübarizənin açıq-aşkar hiss edilməsi nəticə etibarilə problemin həllinə imkan vermir”.

**Ekspertin sözlərinə görə, fakitiki olaraq, bu gün dayanacaq probleminin həlli Bakı Nəqliyyat Agentliyinə həvalə edilib:** ”İlin əvvəlində BNA-nın dayanacaqla bağlı apardığı ”mübarizə” və sahəyə de-fakto nəzarəti ələ keçirməyə cəhd etməsi BNA-nın Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilməsiylə nəticələndi. Altı aya yaxındır ki, BNA-nın BŞİH-ə verilməsi başa çatmadığından prosesə BŞİH də nəzarət edə bilmir. Onu da nəzərə alaq ki, prosesin uzanması problemin həllinin uzanmasına da səbəb olur.

Düşünürəm ki, hazırda de-yure prosesə nəzarət etməli olan Bakı Şəhər İcra Hakimiyyəti hərəkətə keçərək bu sahədəki özbaşınalığa son qoymalıdır. Qurum həm sakinləri, həm sürücüləri, həm də sahibkarları narahat edən məsələnin həllinə öz töhfəsini verməli və ən əsası əldə edilən maliyyə vəsaitindən də bələdiyyə büdcəsinə qanunla nəzərdə tutulan maliyyənin də vaxtlı-vaxtında köçürülməsini təmin etməlidir”.

Çimnaz Şahlar

**Axşam söhbəti**

# "Koronavirusa görə quru sərhədləri açmaq hələ mümkün deyil"

## Fəzail Ağamalı: "Hamımız Operativ Qərargahın qəbul etmiş olduğu qərarlara hörmətlə yanaşmalıyıq"

**Media və sosial şəbəkələrdə uzun zamandır müzakirə predmeti olan bir neçə məsələ var. Quru sərhədlərinin hələ də bağlı qalması, AZAL-ın bahalı uçuşları, kəskin qiymət artımları, o cümlədən Azərbaycan-Ermənistan arasındakı danışıqlar, eləcə də daxili siyasi proseslər mütəmadi gündəmə gətirilən mövzular sırasındadır.**

Ciddi etirazların və iddiaların ortaya çıxmasına səbəb olan mövzularla bağlı fərqli mülahizələr irəli sürülməkdədir. Mövzuların aktuallığını nəzərə alaraq millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ilə söhbətləşmək qərarına gəldik. Millət vəkili qəzetimizə müsahibəsində məsələlərə aydınlıq gətirməklə yanaşı, həm də ətraflı şərh verdi..

**- Fəzail müəllim, Azərbaycanın qonşu ölkələrlə quru sərhədlərinin açılması müzakirə mövzusudur. Bununla bağlı ciddi narazılıqlar, şikayətlər, o cümlədən fərqli iddialar var. Sizcə, quru sərhədləri niyə bağlı saxlanılır?**

- Əlbəttə, biz istərdik ki, bütün sərhədlərimiz açıq olsun. Azərbaycanın və qonşu ölkələrin qanunları çərçivəsində gediş-gəlişin əvvəlki dövrə qayıtmasını istərdik. Ancaq nə edək ki, pandemiya buna imkan vermədi. Pandemiya 2020-ci ildən bugünədək dünya üzərində qara bulud kimi dolaşmaqdadır. Yeni təhlükə hələ qalmaqdadır. Digər tərəfdən meymunçiçəyi xəstəliyi də ortalığa çıxıb. Artıq qonşu ölkələrdə bu xəstəliyə yoluxanlar var. Ona görə quru sərhədlərinin açılmaması qərarı pandemiyadan doğan məsuliyyətlər, yanaşmalar, xüsusən Nazirlər Kabinetinin yanında yaradılmış Operativ Qərargah tərəfindən müəyyənləşib. Ölkənin müvafiq qurumları və vətəndaşlar buna uyğun olaraq öz fəaliyyətlərini qururlar. Bunun başqa alternativi yoxdur. Çünki ölkə istənilən səviyyədə bu cür təhlükələrə qarşı özünün imkanlarını ortaya qoyaraq vətəndaşların təhlükəsizliyini gözləməlidir. Bu baxımdan Nazirlər Kabinetinin iyunun 20-də xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı qərar qəbul edildi. Həmin qərara uyğun olaraq koronavirus infeksiyası hələ də təhlükəli mahiyyət daşıdığına görə, karantin rejimi bu ilin sentyabr ayının 1-dək uzadıldı. Buna görə də quru sərhədlərini açmaq mümkün deyil. 15-20 gün bundan qabaq Azərbaycanda koronavirusa yoluxanların sayı birinci onluğa düşmüşdü. Lakin dünənki məlumata görə, yoluxanların sayı 70-ə yaxındır. Bu, dalğavari şəkildə özünü ifadə etməkdədir. O baxımdan mən hər zaman bu və ya digər məsələlərin peşəkar formada izahının və qəbul edilməsinin tərəfdarı olmuşam. Dəyərli vətəndaşlarımıza demək istərdim ki, Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qəbul etmiş olduğu qərarlara hörmətlə yanaşmalıyıq. Çünki orada peşəkarlar var və onlar dünya miqyasında, regionda və ölkədə pandemiya ilə bağlı gedən proseslərin dərin təhlilini aparır və ona uyğun addım atır.



**- Sərhəd məsələsində müəyyən istisnalar mümkün deyilmi? Məsələn, xarici ölkələrdə təhsil alan tələbələrin, aylardır sərhəddə gözləyən vətəndaşların Azərbaycana girişini təmin etmək olarmı?**

- Müəyyən istisnalar var və onlar da əsasən diplomatlara aid edilir. Yaxud dövlət qurumlarında çalışan şəxslərin xaricə səfərləri ilə bağlı güzəştlər var. Ancaq müxtəlif ölkələrdə təhsil alan tələbələrimizin Azərbaycana qayıtması üçün güzəştli hava yolları nəqliyyatından istifadə etmək olar. Güzəştli tariflər tətbiq etmək mümkündür. Bildiyiniz kimi Azərbaycandan ayrı-ayrı ölkələrə qiyməti nisbətən əlçatan və aşağı olan "Buta" hava yolları ilə uçan təyyarələri var. Bunların sayını artırmaq olar. Yaxud buna bənzər mövsümi xarakter daşıyan, tələbələrə, eyni zamanda xaricdə müalicəsinə ehtiyac olan xəstə vətəndaşlara güzəştli tariflərlə hava nəqliyyatı təşkil etmək vəziyyətdən çıxış yolu olardı. Ancaq nə qədər ki, pandemiya tamamilə aradan qalxmayıb, görünür, quru yollarının açılmasına yanaşma kifayət qədər arqumentlidir. Addımlarımızı, davranışlarımızı Operativ Qərargahın qərarlarına uyğunlaşdırmalıyıq.

**- Hava nəqliyyatı demişkən, AZAL-ın uçuş qiymətlərinin baha olması ilə bağlı ciddi narazılıq var. Bu problemi necə aradan qaldırmaq olar?**

- Bu da hər zaman deyilir, gündəmə gətirilir. Dəfələrlə vurğulanıb ki, AZAL-ın təklif etdiyi uçuş qiymətləri çox bahadır və bu tariflər enməlidir. Qiymətlər insanlarımız üçün əlçatan olmalıdır. Dünyanın bütün ölkələrində hava nəqliyyatının qiymətləri ilə müqayisədə AZAL-ın biletləri ən yüksək səviyyədədir. Səbəb olaraq deyirlər ki, xərclər daha çoxdur. Ancaq xərclərin çox olması o demək deyil ki, qiymətlər fantastik olmalıdır. Millət vəkilləri, şəxsən mən də bu məsələyə münasibətimizi bildirmişik. Çox arzulayardıq ki, Taarif Şurası AZAL-la bu məsələni bir daha müzakirə etsinlər və qiymətləri aşağı salsınlar. Hesab edirəm ki, bunun üçün Azərbaycana alternativ hava yolları nəqliyyatı şirkətlərinin xidmətlərini gətirilməlidir.

> *"Dünyanın bütün ölkələrində hava nəqliyyatının qiymətləri ilə müqayisədə AZAL-ın biletləri ən yüksək səviyyədədir"*

**- Müzakirə olunan məsələlərdən biri də ərzaq və qeyri-ərzaq məhsullarında qiymətlərin kəskin bahalaşmasıdır...**

- Bəli, əfsuslar oslun ki, ölkədə qiymət artımları var və bahalaşma məndə dərin təəssüf hissi doğurur.

**- Aydındır. Fəzail müəllim, millət vəkili və partiya sədri olaraq Azərbaycan-Ermənistan arasında iki ilə yaxındır davam edən danışıqlar prosesinə də münasibətinizi öyrənmək istərdim. Sülh istiqamətindəki müzakirələr, gedişat sizi qane edirmi?**

- Ermənistan riyakar mövqeyini davam etdirməkdədir. Qeyri-ciddi bir dövlətdir. İllər boyu erməni cəmiyyəti anti-türk virusu ilə zəhərlənib. Hələ də o virusdan xilas ola bilmirlər. 44 günlük müharibədə əldə etdiyimiz qələbəni, özlərinin ağır məğlubiyyətini həzm etməkdə çətinlik çəkirlər. Bu durum ölkənin baş nazirindən tutmuş bütün cəmiyyəti əhatə edir. Bir tərəfdən Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasını sözdə, fikirdə bəyan edirlər. Ancaq konkret addımların atılmasına gəldikdə ən müxtəlif yollarla bundan yayınırlar. Həm Rusiyanın, həm də Brüsselin vasitəçiliyi ilə əldə olunan razılaşmalara əməl etmirlər. Ola bilsin, yenidən Azərbaycan torpaqlarını işğal etmək üçün zamanın yetişməsini gözləyirlər. Ermənistan bu cür xəstə təxəyyüllə yaşayan bir ölkədir. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına mane olan başlıca amil İrəvanın qeyri-ciddi, riyakar və hiyləgər mövqeyi ilə bağlıdır. Təsəvvür edin, baş nazirlər səviyyəsində bəyanatlar verilir. Sərhədlərin müəyyənləşməsi, sülh sazişinin bağlanması, eyni zamanda Qarabağda yaşayan ermənilər haqqında fərqli fikirlər ortaya atılır. Lakin münasibətlərin normallaşması istiqamətində konkret addımlar atmaq lazım gələndə dərhal Qarabağda yaşayan ermənilərin "təhlükəsizliyi və hüquqları" məsələsi gündəmə gətirilir. Nə təhlükəsizlik, nə hüquq?! Digər yandan Minsk qrupunu ortaya atırlar. Həmçinin, ABŞ və Fransada erməni diasporu həmin ölkələrin siyasi dairələrinə təsir etməklə Azərbaycana qarşı təzyiq göstərilməsinə cəhd edirlər. Azərbaycana qarşı ərazi iddialarını nümayiş etdirirlər. Məhz o baxımdan Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Ermənistan nümayəndəsi ilə gözlənilən görüşdən imtina etdi və doğru etdi. Ermənistanın atdığı addımlar, o cümlədən Laçında baş verən proseslər göstərir ki, bu dövlət Azərbaycanla münasibətlərin normallaşmasında səmimi və maraqlı deyil. Bu da yeni müharibə üçün zəmin yaradır. İstisna etmirəm ki, əgər Ermənistan bu mövqeyini davam etdirsə, Azərbaycanın qəhrəman silahlı qüvvələri anti-terror əməliyyatları keçirmək məcburiyyətində qalacaqlar. Bu isə Ermənistana daha sarsıdıcı zərbələr vuracaq.

**- Milli Məclisə növbəti seçkilərin qarışıq sistemdə - majoritar və proporsional qaydada keçirilməsi təklifi yenidən gündəmə gəlib. Bu təklifi necə dəyərləndirirsiniz?**

- Son vaxtlar siyasi mühitdə bu məsələ aktuallaşıb. Konstitusiya dəyişikliyi və referendum keçirilməsi ilə bağlı fərqli fikirlər gündəmə gətirilir. Lakin bəri başdan deyim ki, indiki zaman kəsiyində və yaxın dönəmdə hansısa referendumun keçirilməsi gözlənilmir. Ancaq gələcəkdə bu məsələnin reallaşması istisna olunmur. Söhbət seçkidə qarışıq sistemdən - yəni majoritar və proporsional seçki sistemindən istifadə etməkdən gedir. Milli Məclisə birinci çağırışda keçirilən seçkilərdə qarışıq sistemdən istifadə olunmuşdu. Sonradan qanunvericilikdə aparılan dəyişikliklərlə proporsional seçki sistemi aradan qalxdı. Çünki bu sistem keçid dövrü üçün nəzərdə tutulmuşdu. Majoritar seçki sistemi isə bugündək qüvvədədir. Bunların hər birinin özünəməxsus üstünlüyü var. Majoritar seçki sistemi birbaşa seçicilərlə təmas deməkdir. Vətəndaşın namizədlər içərisində ən layiqlisini seçmək üçün birbaşa yaradılmış imkandır. Bu sistemdə konkretlik özünü ifadə edir. Proporsional seçki partiyalar xətti ilə keçirilir. Hesab edilir ki, proporsional seçki sisteminin tətbiqi Azərbaycanda partiyaların siyasi sistemdə yerinin və rolunun artmasına, partiyaların inkişafına müsbət təsir göstərər. Bu məsələnin qabardılmasında ölkə Prezidentinin apardığı islahatlar içində siyasi islahatların da aktuallığı nəzərə alınır və bu baxımdan arqumentləşdirilir. Bildiyiniz kimi cənab Prezidentin islahatları arasında siyasi islahatlar xüsusi yer tutur. Bununla bağlı konkret addımlar atılıb. Azərbaycanda yeni siyasi konfiqurasiya fəaliyyətdədir. Siyasi partiyaların rolunun artırılması üçün Prezident Administrasiyasında siyasi partiyalarla işi birbaşa əlaqələndirən xüsusi şöbə yaradıldı və şöbəyə hər birimizin xüsusi hörmət bəslədiyi Ədalət Vəliyev rəhbər gətirildi. Artıq siyasi partiyalar arasında kifayət qədər sivil münasibətlər formalaşıb, dialoq mühiti özünü açıq şəkildə göstərməkdədir. Ən müxtəlif tədbirlərdə iqtidarlı-müxalifətli, siyasi baxışından asılı olmayaraq bütün partiyaların birgə iştirakı fərqli platformalarda cəmiyyətə təqdim edilir.

İsmayıl Qocayev



# Turizmin inkişafı prioritetləşib

## Sahibkarların güzəştli kreditlərə çıxış imkanları artırılmalıdır

**Turizmin inkişafını nəzərdə tutan layihələrin dəstəklənməsi Sahibkarlığın İnkişafı Fondunun 2022-ci ildə güzəştli kreditlərin verilməsi üzrə prioritet istiqamətlərinə daxildir.**

Turizm sahəsi pandemiyadan ən çox zərər çəkən fəaliyyət sahələrindən biri hesab olunur. O baxımdan Fond tərəfindən indiyədək 234 turizm layihəsinin maliyyələşdirilməsi məqsədilə 60,3 milyon manat güzəştli kredit ayrılıb. Bu layihələrin reallaşdırılması 5 mindən artıq yeni iş yerinin açılması imkanı yaradır.

2022-ci ilin ötən dövrü ərzində isə turizmin inkişafı ilə bağlı 5 layihəyə 1,3 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 39 yeni iş yeri yaradılması nəzərdə tutulur. Turizm layihələrinin maliyyələşdirilməsi məqsədilə Fonda daxil olan müraciətlərin əksəriyyəti kənd turizminin inkişafı, hotel, mehmanxana və qonaq evinin yaradılması və ya genişləndirilməsi, sanatoriya və müalicə sağlamlıq mərkəzinin təşkili ilə bağlı olub. Hazırda turizmin müxtəlif sahələri üzrə layihələrin güzəştli kredit hesabına maliyyələşdirilməsi davam etdirilir.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, turizm Azərbaycanda enerji sektorundan sonra ən çox valyuta gətirən sahədir. Deputatın sözlərinə görə, pandemiyadan əvvəlki dövrdə ölkəyə gələn turistlərin sayı 3,2 milyon nəfər idi:** "Bu da ölkəyə təxminən 2,8 milyard dollar vəsaitin daxil olması demək idi. Ona görə də postpandemiya dövründə turizmin inkişafı daha da prioritetləşib. Bu, ölkəyə valyutanın daxil olması və gəlirlərin artırılması baxımından vacibdir. Önəmli nüanslardan biri turizm sektoruna sərmayə qoyuluşlarının genişləndirilməsidir. Sahibkarların güzəştli kreditlərə çıxış imkanları artırılmalıdır. Bu istiqamətdə aparılan işlər həm turizm obyektlərinin sayının artması, eyni zamanda yeni xidmətlərin, məhsulların bazara çıxarılmasına səbəb olacaq. Gözlənti ondan ibarətdir ki, bütövlükdə ölkəyə gələn turistlərin sayında 2022-ci ildə artımlar olacaq. İlk 5 ayın nəticələri göstərir ki, turistlərin sayı 2,6 dəfə artıb. Ümid edirik ki, turizm sahəsində canlanma müşahidə olunacaq".

İsmayıl Qocayev

# Normal təhsil, tərbiyə mühiti yarada bilmədik

## "Dünya Bankının krediti hesabına milyonçu olanları hamı tanıyır"

**"Dünya Bankının ayırdığı külli miqdarda kredit vəsaiti istiqaməti üzrə xərclənmir. Dərsliklərin yazılmasında monopoliya var, təsadüfi adamlar məktəblərə direktor təyin olunur. Ali məktəblər naşı idarəçiliyin qurbanına çevrilib".**

Bu barədə millət vəkili, təhsil eksperti Etibar Əliyev deyib. Deputat bildirib ki, bu neqativ hallara məhəl qoyan yox idi, lakin acı nəticələrini sonradan gördük: "Dünya Bankının krediti və Proqramlara ayrılan vəsaitlərin mənimsənilməsi hesabına milyonçu olanları hamı tanıyır".



*Etibar Əliyev: "Acı fəsadlar göz önündədir. Dərsliklər elə urvatsız səviyyədə yazıldı ki, müəllim, şagird və valideyn labirintə düşdü"*

Dünya Bankının kredit vəsaitinin hesabına yazılan kurikulum sənədi proqram, məzmun və dərsliklərdə dolaşıqlıq yaratdı. Bu sənədi ölkənin elm və təhsil adamları yox, Hollandiyanın hansısa "CİTO" qrupu bizə sırıdı. Acı fəsadlar göz önündədir. Dərsliklər elə urvatsız səviyyədə yazıldı ki, müəllim, şagird və valideyn labirintə düşdü. İndi də bu proses davam edir. Böyük Kant deyirdi ki, "uşaqları yaxşı öyrətmək üçün əvvəlcə onlarda xarakter formalaşdırmaq lazımdır". Məktəb də analoji olaraq belə olmalıdır. Məktəbdə tədris və tərbiyə üçün normal mühit yaradılmasa, illüziyadan və imitasiyadan xilas ola bilməyəcəyik. Normal təhsil və tərbiyə mühiti yarada bildikmi? Yox, bacarmadıq. Bunu etmək üçün məktəb rəhbərliyi şəffaf seçilməli, valideyn-müəllim münasibətləri ali səviyyədə olmalıdır. Məktəb öz sagirdləri arasında ayrı-seçkilik mühiti yaratmamalıdır. XXI əsrin məktəbində tərbiyə amili gücləndirilməlidir. Əgər uşaqlar kütləvi şəkildə məktəbdən yayınırlarsa və buna şərait yaradılırsa, məktəb və müəllim öz üzərinə düşən mühüm dəyərdən-tərbiyədən imtina etmiş olur".

**E.Əliyev vurğulayıb ki, dünyada məktəb tədqiqatları geniş vüsət alıb. Burada gələcək proqnozlaşdırılır:** "Dumanlı nə görünürsə, onun aradan qaldırılması üçün mütəxəssislər toplaşırlar, hökumət səviyyəsində məsələlər qaldırırlar. Biz təhsilimizin gələcəyini proqnozlaşdıra bilmirik. Günləri yola veririk, tənqid edənlərdən düşmən obrazı yaradırıq. Deyirlər ki, təhsildə fundamental problemlər barədə tədqiqatlar və diskussiyalar aparılmır. Bu harda aparılmalıdır? Bunun təşəbbüskarı kim olmalıdır? Dialoq mühiti varmı? İndiki təkəbbürlə biz heç nəyə nail ola bilməyəcəyik. Sahəni bilən adamlar bir yerə toplaşıb mövcud durumu təhlil etməlidirlər. Təəssüflər olsun ki, təfəkkür tərzi buna imkan vermir. Bəzən görürsən ki, cavan məmurun təfəkkürü yaşlı məmurun təfəkküründən daha məhdud və avtoritardır. Bu hal indi özünü daha qabarıq şəkildə göstərir. Dinləmə mədəniyyəti olmayanda monoloq burulğanı yaranır. Vəzifə tutanların çoxunun qazandığı bilik və mərifət təhsil sahəsinə uyğun gəlmir. Bunun da fəsadları artıq görsənir və genişlənir. Təhsilimizi qoruya bilməsək nə indimiz, nə də gələcəyimiz bizi bağışlayacaq".

İsmayıl

# Roza Zərgərli mənfi imicə sahib insan deyil

## "Anası kim olursa-olsun, əgər bir yetimə ev verilibsə buna sevinmək lazımdır"

**Dövlət Roza Zərgərlinin oğlu Corc Qafarovu evlə təmin edib.**

Bu barədə aktyor özü sosial şəbəkədə paylaşıb: "Cənab Prezident İlham Əliyevin verdiyi sərəncamla mənzillə təmin olundum . Buna görə dövlət başçımıza sonsuz təşəkkürümü bildirirəm".

O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi sənədin fotosunu yayımlayıb.

Qeyd edək ki, Corc və qardaşı Jerar anasını itirdikdən sonra 2 saylı uşaq evində qalıb. Daha sonra müğənni R.Zərgərli onları övladlığa götürüb.

Müğənninin oğluna ev verilməsi ictimaiyyət arasında birmənalı qarşılanmayıb. Şəhid və qazi ailələrinin əvəzinə Corcun mənzillə təmin edilməsi insanlarda aqresiyyaya, ironiyaya səbəb olub.

**Məsələ barədə fikirlərini "Şərq"ə bölüşən sosioloq Lalə Mehralı bildirib ki, həmin gənc yaradıcı insan, aktyordur:** "Üstəlik internat evində böyüyüb. Roza Zərgərli onu rəsmi şəkildə övladlığa götürməyib, sadəcə himayə edir. Ona görə də dövlətin Corcu evlə təmin etməsində qeyri-adi durum yoxdur, oludqca normaldır. İndiyə qədər təxminən 400-dən çox internat evində böyüyən uşaqlara mənzil verilib. Bu məsələdə onu kimin övladlığa götürməsi, himayədarlıq etməsi rol oynamalı deyil. O, ehtiyac içində internatda böyüyüb və olduqca çətin həyat yaşayıb. Bir insan haqqında hökm verməzdən əvvəl onun yaşadığı həyatı öyrənmək lazımdır. Şəhid və qazi ailələri üçün kütləvi şəkildə hansısa bina, şəhərcik inşa edilir. Bir dəfəyə 40-50 ailə evlə təmin olunma mərasimi keçirilir. Məsələn, min qazi, şəhid ailəsindən birinə ev verilsə, bu, böyük narazılıq doğurar. Çünki onları bir-birindən seçmək olmaz. Hər biri eyni statusu daşıyır. Bir şəhid, qazi ailəsinə mənzil verməklə sosial narazılığı gücləndirməyə gərək yox idi. İnternat evində böyüyən uşaqlar da bu dövlətin vətəndaşıdır. Ona görə onların sosial rifahına xidmət etmək dövlətin borcudur. İnsanlar sevinməli, təqdir etməlidirlər ki, bir yetimin evi oldu. Anası kim olur, olsun. R.Zərgərli mənfi imicə sahib bir adam deyil. İndiyə kimi çoxsaylı uşaq himayə edib. Bu, R.Zərgərlinin övladlığa götürdüyü birinci və sonuncu uşaq deyil. Hətta səhv etmirəmsə, himayə etdiyi bir qız övladı müğənninin evindən soyğunçuluğa bənzər hadisə də törətdi. Sonra həmin qızı bağışladı, polisə də şikayət etmədi. O, böyük ürəyə sahib bir insandır. Bəlkə də müğənni, kənardan gəliri olduğuna görə insanlarda qıcıq yaradır".



Sücayət Mehti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

# Düzgün qidalanma uşaqların inkişafına təsir edir

## Bütün uşaq bağçaları, məktəblər sağlam qidalarla təmin olunmalıdır

**Uşaq və gənclərin sağlam inkişafı Azərbaycan dövlətinin hər zaman prioritetləri sırasındadır. Bu sahəyə ciddi nəzarət edilir, diqqət ayrılır və məqsədyönlü layihələr icra olunur. Sağlam qidanın vacib olduğu sahələrdən biri də ümumtəhsil məktəbləri və uşaq bağçalarıdır.**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin UNICEF və Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırdığı "Məktəblilərin qida bələdçiləri" pilot layihəsinin qarşıya qoyduğu məqsəd də məktəblilərin sağlam qidalanmasına dəstəkdir. Bu günlərdə layihə başa çatıb və yekun tədbir keçirilib. Tədbirdə layihənin yekunlarına dair hesabat media nümayəndələrinin diqqətinə çatdırılıb. Bildirilib ki, layihə çərçivəsində məktəblilər arasında sağlam qidalanmanın təşviqi, qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanması məqsədi ilə maarifləndirmə tədbirləri təşkil olunub. Belə ki, ilkin mərhələdə AQTİ mütəxəssisləri tərəfindən 30 nəfərə 12 mövzudan ibarət onlayn formada seminar keçilib. Layihənin reqlamentinə əsasən, imtahanı uğurla başa vuranlar "Məktəblilərin Qida Bələdçiləri" nişanı ilə təltif olunub və həmin şagirdlər məktəblərdəki bufetlərin fəaliyyəti, qida təhlükəsizliyi və sanitar qaydalara əməl olunmasına dair ictimai nəzarəti həyata keçiriblər. Daha sonra imtahanı uğurla başa vuran iştirakçıların təmsil olunduqları məktəblərin şagirdləri arasında sorğu keçirilib. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda 5 və 9-cu sinif şagirdləri arasında keçirilən sorğuda ümumilikdə 16 məktəbdən 1600 şagird iştirak edib. Anket formasında tərtib olunmuş sorğularda qida təhlükəsizliyi haqqında ümumi anlayışlar, sağlam qidalanma vərdişləri və qaydaları, gigiyenik tələblərə riayət olunması, düzgün maye qəbulu, fastfud yeməkləri və zərərli alışqanlıqlara münasibət, və s. istiqamətlər yer alıb. Sorğunun nəticəsinə əsasən, layihədən əvvəl və sonra aparılan testlər şagirdlərin qida vərdişlərindəki dəyişiklikləri əks etdirib. Belə ki, layihədən əvvəl qida təhlükəsizliyi anlayışı haqqında məktəblilərin 72 faizi məlumatlı olduğu halda, layihədən sonra bu rəqəm 97 faizə çatıb. Layihənin reallaşmasından sonra AQTA-nın 1003 Çağrı Mərkəzi ilə bağlı məlumatı olan şagirdlərin sayı da artıb. Əvvəl Çağrı Mərkəzi ilə bağlı məlumatı olan şagirdlərin sayı 51 faiz təşkil edirdisə, layihədən sonra bu rəqəm 95 faizə çatıb. Digər mühüm məsələ uşaqların səhər yeməyi ilə bağlıdır. Uşaqlar əksər hallarda səhər yeməyinə meylsiz olur. Bu da məlumdur ki, səhər yeməyi uşaqların fiziki və zehni qabiliyyətinə, eləcə də akademik göstəricilərinə kifayət qədər təsir göstərir. Əgər layihədən əvvəl sorğuda iştirak edən şagirdlərin 20 faizi səhər yeməyi yemədiyini bildirmişdisə, layihədən sonra bu göstərici 7 faizə düşüb. Sorğuda iştirak edən uşaqların 31 faizi həftə ərzində heç balıq yemədiyini bildirib. Süd məhsulları qəbul etməyən uşaqlar isə 15 faiz təşkil edib. Sorğudan sonra bu göstəricilər müvafiq olaraq 18 faiz və 5 faizə qədər azalıb. Testin nəticəsinə görə, layihədən sonra həftədə 5 gündən çox şəkərli içki qəbul edən məktəblilərin sayı isə 25 faizdən 5 faizə düşüb. Layihədən sonra həftədə beş gündən çox şirniyyat yeyən şagirdlərin sayı 13 faizə, çips yeyən uşaqların sayı isə 4 faizə qədər azalıb.

Pilot layihə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün nəzərdə tutulmuş Dövlət Proqramı", eləcə də UNICEF-in Azərbaycanda 2021-2022-ci illər üçün Səhiyyə və Qidalanma Proqramının icrası ilə əlaqədar olaraq, əhalinin həyat və sağlamlığının qorunması üçün qida təhlükəsizliyinin daha səmərəli təşkilinin təmin edilməsi istiqamətində maarifləndirmə işlərinin genişləndirilməsi və daha da təkmilləşdirilməsi məqsədilə reallaşdırılıb. Yekun tədbirdə çıxış edən BMT-nin Uşaq Fondunun Azərbaycandakı nümayəndəsinin müavini William abi Abdullah bildirib ki, düzgün qidalanma hər bir uşağın həyatına təsir edir. Yanlış qidalanma uşaqlarda fiziki qüsurlara da gətirib çıxarır, bütün bu hallar uşaqların təhsilinə təsir göstərir: "Sağlam qidalanma vərdişlərinin uşaqlara aşılanması ilə bağlı bu mühüm layihəni tərəfdaşlarımızla birgə yetirirk. Biz 16 məktəbdə oxuyan şagirdlərin biliklərini əvvəlcə araşdırdıq. Layihənin əvvəlində şagirdlər bildirdi ki, onlar məktəbə gələndə səhər yeməyi yemirlər. Ancaq layihədən sonra bu hal 20 faizdən 7 faizə düşdü. Mən çox məmnunam ki, layihələrin müsbət nəticələri ortaya çıxdı. Onu da qeyd edim ki, təəssüflər olsun ki, layihə əsnasında məlum oldu ki, məktəblərdə qida mühiti uşaqların kökəlməsinə şərait yaradan vəziyyətdədir. Şəkər tərkibli içkilər məktəb yeməkxanalarında uşaqlara satılır. Bu məsələnin həlli üçün çoxtərəfli yanaşmaya üstünlük verməliyik. Sağlam qida vərdişləri ilə bağlı uşaqların maarifləndirilməsi vacibdir".



**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında bu səpkili layihələrin uşaqların düzgün fiziki və əqli inkişafı üçün əhəmiyyətli olduğunu dedi:**

- Baxın, UNİCEF rəsmisi də uşaqların şəkərli qidalardan, şəkər tirkibli içkilərdən uzaq olmasını tövsiyə edir. Layihənin icrası zamanı məlum olub ki, məktəb yeməkxanaları, bufetlərdəki mühit - təqdim olunan, satışa çıxarılan yeməklər, qidalar uşaqların kökəlməsinə şərat yaradır. Təəssüf ki, köklük xəstəlik halını almaqdadır. Bu isə qeyri-sağlam inkişaf deməkdir. Deməli, uşaqların düzgün inkişafına mane olan amillər aradan qaldırılmalıdır. Uşaq bağçaları, məktəblər sağlam qidalarla təmin edilməlidir. Məsələn, qardaş Türkiyədə şagirdlərə, xüsusən də ibtidai sinif şagirdlərinə süd, süd məhsulları, quru meyvələr verilir. Hamımız da bilirik ki, süd məhsulları uşağın inkişafında necə əhəmiyyətli rol oynayır. Eləcə də tərkibi vitaminlərlə zəngin olan quru meyvələr həm toxluq hissi yaradır, həm də faydalıdır. Yaxşı olar ki, layihədən əldə edilən nəticələr məktəblilərin sağlam qidalanmasında dəyişikliklərə gətirib çıxarsın. Valideynlər də uşaqların sağlamlığından, gün ərzində sağlam qidalarla təmin ediləcəklərindən arxayın olsunlar, balalarımız da sağlam böyüsün.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Müəllimlərini tez-tez dəyişənlərin nailiyyətləri zəif olurdu

## Təhsil Nazirliyi artıq bu problemə nöqtə qoydu, şagirdlər rahat nəfəs ala bilərlər

**"Bu ildən verilən qərarla 3 ildən az müddətə ümumtəhsil müəssisələrində çalışan müəllimlər işə qəbul müsabiqəsində yerdəyişmə məqsədilə iştirak edə bilməyəcək. Onlar gərək çalışdıqları işdən ayrılsınlar, yalnız bu zaman müsabiqədə iştirak edə bilərlər".**

Bunu Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov bildirib. Onun sözlərinə görə, həmin namizəd elektron ərizə qəbulu zamanı işdən ayrılmayıbsa, onun ərizəsi təsdiq edilməyib deməkdir: "Bu səbəbdən də həmin şəxsin müsabiqədə iştirakı mümkün olmayacaq. Təhsil Nazirliyinin əsas məqsədi şagird nailiyyətlərinin, tədris keyfiyyətinin artırılması ilə bağlıdır. Təəssüflə qeyd etməliyəm ki, müəllimlərin tez-tez yerdəyişmə etməsi və ümumiyyətlə bir şagirdə bir neçə il ərzində eyni fənn üzrə müxtəlif müəllimlərin dərs keçməsi o şagirdlərin nailiyyətlərində də öz əksini tapır, psixoloji olaraq təsir edir. Ona görə də bu qərar bu ildən qüvvəyə minib. Düşünürəm ki, bu qərar şagird nailiyyətlərinə də müsbət təsirini göstərəcək. Hələ ki, tətbiq edilən bu yeniliyin dəyişdirilməsi ilə bağlı hər hansı qərar yoxdur".

**Təhsil Xidmətləri Araşdırma Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında işə qəbul müsabiqəsində yerdəyişmə ilə bağlı dəyişikliyi müsbət qiymətləndirdiyini söylədi:**

- Bu dəyişikliyi müsbət qiymətləndirirəm, çünki gənc müəllimlərin işə qəbulunda bir çox hallarda problem yaşanırdı. Əvvəlki qayda ilə işə qəbul prosesində, xüsusən də bölgələrdəki vakant müəllim vəzifəsinə qəbul üçün ərizə verib işə qəbul olunanlar 1 il sonra yerdəyişmə üçün müraciət edirdi. Bu isə bölgə məktəblərində yenə də müəllim çatışmazlığı yaradırdı. Həmçinin həmin məktəblərin şagirdləri də problem yaşayırdı. Müəllimlərin tez-tez dəyişməsi xüsusən ibtidai sinif şagirdləri üçün problemə çevrilirdi. Hər dəfə fərqli müəllimlə qarşılaşan şagird tədrisə adaptasiya oluna bilmir. Bir müəllimə alışmamış, isinişməmiş başqa birisi çıxır şagirdin qarşısına. İbtidai sinif şagirdləri üçün bu, böyük bir problemdir. Onlar hələ uşaqdır və görməyə adət etdikləri müəllimi görmək istəyirlər. Yeni müəllimlə çətin ünsiyyət qururlar. 6-8 yaşlı uşaqların buna bacarıqları yetərli qədər deyil. Uşaq qarşısındakı müəllimin onunla necə davranacağını bilmir. Çəkinir, bəzi hallarda qorxur, özünə güvən hissini itirir. Amma bir sinif müəllimi uzun müddət eyni siniflə işləyəndə şagirdlə müəllim arasında bağ yaranır, bir-birinə öyrəşirlər, müəllim şagirdləri tanıyır, xasiyyətlərini bilir, şagird də müəlliminə bələd olur. Hər dəfə yeni müəllim şagirdin yenidən adaptasiyasıdır ki, buna da vaxt lazımdır. Bu vaxt axarında isə tədris zəifləyir. Tədris qalır bir kənarda, şagird müəllimi "öyrənməklə" məşğul olur. Buna görə də Təhsil Nazirliyinin bu qərarını doğru sayıram. Hətta həsab edirəm ki, müddət 3 yox, 5 il tətbiq edilməlidir. Heç olmasa, ibtidai sinif müəllimlərinə sinfi təhvil verməmiş yerdəyişməyə icazə verilməməlidir.

*K.Əsədov qeyd etdi ki, müəllimlərin işə qəbulu prosesində gənc müəllimlər əvvəlcə bölgə məktəblərində çalışmağa razı olur, sonrasa imtina edirlər:*

- Halbuki, bölgələrdəki məktəblərin şəraiti, bölgənin özünün xüsusiyyətlərini öyrənə bilərlər. Bilmədən, tanımadan, şəraitlə tanış olmadan işə qəbula razılıq verirlər, sonra peşman kimi görünürlər və yerdəyişmə etmək istəyirlər. Vakant yerlərə ərazi təqdim edəndə diqqətli olsunlar, sonra yerlərini dəyişməli olmasınlar. Nəzərə alsınlar ki, belə dəyişikliklər uşaqların psixologiyasına da mənfi təsir edir, tədris prosesinə, dərsin qavranmasına da. Elə ibtidai siniflər var, 4 il ərzində sinif müəllimi 4 dəfə dəyişib. Belə olmaz. Düşünürəm ki, TN-in tətbiq etdiyi məhdudiyyət problemin qarşısının alınmasına yönəlib və doğru qərardır.

**Məlahət Rzayeva**

# Üç yeni radio açılacaq

**Audiovizual Şurası üç ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün müsabiqəlar elan edib.**

**Axşam.az xəbər verir ki, bu barədə Audiovizual Şuranın iyulun 7-də keçirilən iclasında qərar qəbul olunub.**

Bildirilib ki, iclasda radio yayımı üçün yararlı olan, boş radiotezliklərin istifadəsi məsələsinə baxılıb. Qeyd olunub ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 35.1ci maddəsinun tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi ölkə üzrə mövcud olan radio-televiziya yayım stansiyalarından radio yayımın həyata keçirilməsi üçün istifadəyə yararlı radiotezliklərin siyahısını Şuraya təqdim etmişdir. Alınan bu məlumatlar əsasında Şura aparatının Audiovizual yayıma texniki nəzarət, informasiya texnologiyaları və kommunikasiya şöbəsinin və Dövlət Radiotezliklər İdarəsinin mütəxəssisləri zəruri monitorinqlər həyata keçirib, yoxlamalar aparılıb.



İclasda bununla bağlı Şura üzvlərinə məlumat verilmiş, alınan məlumatlar əsasında Şura üzvləri yeni ümumölkə yerüstü radio yayımçılarının fəaliyyətinin mümkünlüyü qənaətinə gəlmişlər. Aparılan müzakirələrdən sonra yayım üçün yararlı radiotezlik resurslarından səmərəli istifadə olunmasını təmin etmək, həmçinin, ümumölkə miqyasında radio yayımında müxtəlifliyin inkişafına nail olmaq məqsədilə 3 (üç) yeni ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün "Media haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci, 50.1.3-cü və 51.1-ci maddələrinin tələblərinə uyğun olaraq ayrı-ayrı müsabiqələrin elan edilməsi barədə qərarlar qəbul edilib.

# İrəvanın əsl tarixinin son izləri məhv olmaq təhlükəsi ilə üzləşib

## Beynəlxalq təşkilatlar ermənilərin İrəvandakı Azərbaycan mədəni irsinə qarşı törətdiyi vandalizmə göz yummamalıdır



**"Bu günlərdə Azərbaycanın bir sıra tanınmış elm və ictimaiyyət xadimləri tərəfindən Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində Azərbaycan xalqının irsinə qarşı həyata keçirilən mədəni soyqırımı ilə bağlı UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlanyıb.**



Əsas məqsəd UNESCO-nun Cənubi Qafqazda tarixi və mədəni irsin araşdırılması missiyasına həqiqətləri çatdırmaqdır. Onsuz da ermənilərin bu bölgədə heç bir tarixi kökü yoxdur və ona görə də bu coğrafiyada öz irsinin qorunmasından söhbət belə gedə bilməz". **Bu sözləri "Şərq"ə açıqlamasında sözügedən müraciətə imza atan "Elin Səsi" Milli-Mənəvi Dəyərlərimizin Qorunması İctimai Birliyinin sədri Elvin Talışinski deyib.**

Onun sözlərinə görə, bugünkü İrəvanın tarixi mərkəzi ortə əsrlərdə bizim əcdadlarımız, azərbaycanlılar tərəfindən salınmış şəhər olub. Bu, tamamilə dağılmış bir şərq müsəlman şəhəri idi: "Hazırda onun yalnız kiçik bir hissəsi qalıb ki, ermənilər həmin ərazini Kond adlandırırlar. Qeyd edək ki, ermənilər kond sözünü Azərbaycan dilindən olan kənd sözündən götürüblər. Bu ərazidə müəyyən sayda köhnə tikililər, hətta qədim məscidin qalıqları da qalmışdı. Lakin indi erməni hökuməti qəfildən Kond adlanan ərazini müasirləşdirmək qərarına gəlib - köhnə tikililəri sökmək və bununla da Azərbaycan İrəvanının orta əsr memarlığının son izlərini məhv etmək. Təpəbaşı məhəlləsinin sökülməsinə bir neçə dəfə cəhd göstərilsə də bu, vəsait çatışmazlığından uğursuz olub. Bu gün yenidən həmin məsələ gündəmdədir. Ancaq Ermənistan gözəl anlayır ki, tarixi şəhərlərimizdən olan İrəvandakı azərbaycanlıların mədəni irsi olan Təpəbaşı məhəlləsinin dağıdılması ilə bağlı həqiqətin üzə çıxa biləcəyi təhlükəsi var. Onlar bilir ki, Ermənistanda paralel monitorinq aparılmasa, YUNESKO-nun heç bir missiyası Azərbaycana buraxılmayacaq".

**E.Talışinski həmçinin qeyd edib ki, Azərbaycan dövləti, eləcə də ictimaiyyəti bu monitorinqin əvvəlkilər kimi keçirilməsinə imkan verməyəcək:**

"Bizim, Azərbaycanın elm və ictimai xadimlərinin ünvanladığı müraciətdə bütün bu məsələlər geniş şəkildə UNESCO rəhbərliyinə çatdırılıb. Nəzərinizə çatdırım ki, rəhbərlik etdiyim "Elin Səsi" millimənəvi dəyərlərimizin qorunması ictimai birliyi olaraq, biz bugündək iştirak etdiyimiz beynəlxalq konfranslarda və tədbirlərdə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmış, BMT, ATƏT, Aİ kimi təşkilatlara müraciətlər ünvanlamışıq. Bu sahədə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəhbərliyi ilə respublikamızın vətəndaş cəmiyyəti institutları olduqca fəaldırlar və öz səslərini dünyaya çatdırırlar. Ümumiyyətlə, erməni vandalizminin izlərinə 30 il işğal altında qalan və rəşadətli ordumuz tərəfindən azad edilmiş ərazilərə səfərlərimiz zamanı rast gəlinir. Tarixi torpaqlarımızda təbiətə, bioloji müxtəlifliyə, su hövzələrinə qarşı ciddi ekoloji terrorlar törədilib, bütün şəhərlərimiz və kəndlərimizdə barbarlıq və vandalizm aktları həyata keçirilib, dini və mədəni abidələrimiz vəhşicəsinə dağıdılıb. Buna 30 il yaxın əsarət altında qalan ərazilərimizdən olan görüntülər və ora səfər edən beynəlxalq təşkilatların nümayəndələri, diplomatlar öz gözləri ilə şahid olublar. 44 günlük müqəddəs qələbəmizdən sonra demək olar ki, dünyanın artıq ermənləri müdafiə edəcək tərəfi qalmayıb. Ümid edək ki, beynəlxalq təşkilat bu məsələyə diqqətlə yanaşacaq və indiki Ermənistan paytaxtının əsl tarixinin son izlərinin məhv edilməsinin dayandırılmasına kömək edəcək".

**Şəymən**

# Müəllimlərin işə qəbulu şəffaf, əlçatan olacaq

## Təhsil ekspertləri qaydalara edilən dəyişiklikləri müsbət qiymətləndirib



**Müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarında tətbiq edilən yeniliklər açıqlanıb. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov ötən gün keçirdiyi brifinqdə dəyişikliklər barədə media nümayəndələrinə məlumat verib:**

"Əvvəlki illərin təcrübəsinə əsaslanaraq və namizədlərin çoxsaylı müraciətlərini nəzərə alaraq imtahan müddətini hər fənn üzrə 90 dəqiqədən 120 dəqiqəyədək artırmışıq".

Dəyişikliyə əsasən, müəllimlərin işə qəbulu üzrə test imtahanında səhv cavablandırılmış suallar düzgün cavabların dörddə bir hissəsinə təsir edəcək.

E.Bağırov həmçinin deyib ki, imtahanlar bir neçə şəhər və rayonda həyata keçiriləcək. Bu, namizədlərin də imtahanların keçirildiyi mərkəzlərə rahat gəlməsi üçün əlverişlidir. İmtahanlar 15 mərkəzdə keçiriləcək. Namizəd ixtisas sualına səhv cavab verirsə, bu, həmin ixtisasdan olan sualın və ya ümumilikdə düz cavablandırılan sualın 0.5 balını aparacaq. Metodikadan səhv cavablandırılan sual isə nəticəni 0.25 bal azaldacaq".

**Təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, MİQ imtahanlarında təkmilləşməyə ehtiyac var idi:** "Çünki son illər keçirilən imtahanlarda suallar, testlərin məzmunu ciddi şəkildə problemlərə gətirib çıxarırdı. Bu il bir sıra dəyişikliklər edilib. Təbii ki, bu dəyişiklikləri müsbət xarakterizə edirəm. Yeniliklərdə bir neçə diqqət çəkən məqam var. Tətbiq edilən yeniliklərdə səhv cavabların düzə təsiri vacib idi. Çünki bir çox hallarda imtahan iştirakçıları sualların cavablarını bilmədikdə belə cavablayırlar. Bəzən cavab doğru çıxır və ədalətli olmur. Dəyişikliklərdə əsasən "bilik qiymətləndirilir" prinsipi tətbiq edilib. İmtahanlarda xüsusilə ixtisas suallarına üstünlük verilməsi vakant yerlərdə ixtisasını bilən müəllimlərə yer verilməsinə gətirib çıxaracaq. Bu, çox yaxşı haldır və hesab edirəm ki, müəllimlərin işə qəbulu imtahanında edilən dəyişikliklər işə qəbulun kifayət qədər əlçatan, obyektiv, şəffaf olmasına xidmət edəcək".

**Digər təhsil eksperti Qoşqar Məhərrəmov isə "Şərq"ə açıqlamasında bildirib ki, MİQ qaydalarındakı dəyişikliklərdə həm mənfi, həm də müsbət məqamlar var.**

Mütəxəssis hesab edir ki, imtahan müddətinin artırılması müsbət haldır və müəllimlərin lehinədir: "Müəllimlər zamana qarşı savaşmamalıdır. Müəllimlərin təyinat yerində mütləq çalışması müsbət qərardır. Çünki bəzi zonalarda, xüsusilə kəndlərdə, qəsəbələrdə ibtidai siniflərdə hər il müəllim dəyişdirilməsindən əziyyət çəkirlər. Əgər hər il müəllim dəyişikliyi edilirsə, təbii olaraq onlar stres və adaptasiya problemi yaşayırlar. Mənfi tərəfi isə ondan ibarətdir ki, 4 səhv bir düzü aparmamalıdır. Bu, ənənəvi yanaşmadır. Düzgün və müasir yanaşma deyil. TOFEL, İELTS, "Kembriç"in imtahanlarının heç birində səhv düzü aparmır.

Düzdür, bunu namizədlərin bilmədikləri suallara təsadüfi cavab verməsi ilə əlaqələndirirlər ki, bu zaman da keyfiyyətli ölçü dərəcəsi aşağı düşür. Amma fikrimcə, səhv düzü aparmamalıdır. İnsanları başqa cür fərqləndirmək olar. Eyni balı toplayan insanları müsahibədə fərqləndirmək olar və yaxud da sualların keyfiyyətini artırmaqla layiqli namizədlərin yüksək bal toplamasına zəmin yaratmaq olar".

**Şəymən**






## "Nar" əyləncə dolu yay kampaniyasına start verir

**Əyləncə dolu bir yay keçirmək istəyənlər üçün "Nar" maraqlı fəaliyyətlərlə dolu yay kampaniyasına başlayır. Paytaxt Bakı və bölgələrdə keçiriləcək kampaniyada iştirak edənlər maraqlı oyunlara qatılaraq əylənəcək və "Nar"dan hədiyyələr qazana biləcək.**

Bundan başqa, mobil operatorunsosial media səhifələrində keçiriləcək müsabiqələrdə iştirak etməklə "Nar"dan dəyərli hədiyyələr, ən əsası, iki nəfərlik səyahət paketi qazanmaq şansı da əldə edirsiniz.

"Nar"ın sürpriz və yeniliklərinisosial mediada kampaniyanın rəsmi simaları İradə Qədirova (Instagram: irada_gadirova), Samirə Əfəndi (Instagram:efendi_music) və Cəfər Nəcəfov (Instagram: jafarnajafov)paylaşacaqlar.

Kampaniyanın ən böyük və əyləncəli sürprizi isə yayın sonunda olacaq. Səbrsizliklə gözlənilən o gün barədə xəbərləri "Nar"ın rəsmi hesablarından, kampaniyanın rəsmi simalarından və #TamHazıram həştəqini izləməklə əldə edə bilərsiniz.

## Bakının ən böyük dərdi...

### Liftlərin texniki xidmətinə nəzarət yoxdur



**İyulun 4-ü Bakıda yaşayış binasının lifti qırılıb. Hadisə paytaxtın Nərimanov rayonu, Həsənoğlu küçəsi 6A ünvanındakı binada baş verib.**

Axşam saat 19:30 radələrində yaşayış binasının lifti hərəkətdə olarkən qırılıb. Hadisə nəticəsində liftdə olan bir nəfər xəsarət alıb. Dərhal hadisə yerinə təcili tibbi yardım briqadası çağrılıb. Xəsarət alan 48 yaşlı Zəhra Həsənova topuğun travması diaqnozu ilə xəstəxanaya yerləşdirilib.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında bildirib ki, liftlərdə qəzalar əsasən, normadan çox yüklənmə olduqda, elektrik sistemində nasazlıq yarandıqda, quraşdırılması zamanı düzgün montaj edilmədikdə, istismar müddəti bitən avadanlıq və mexanizmlərin vaxtında dəyişdirilməməsi səbəbindən baş verə bilir:** "Liftlərin istismarı təhlükə potensialı olan obyektlər siyahısındadır. Orada texniki baxışın göstərilməsini, servis xidmətini xüsusi icazə verilmiş, sertifikasiyalaşmış müəssisələr həyata keçirir.

Yəni istər binalarda, istər obyektlərdə liftlərin istismarı texniki təhlükəsizlik üzrə dövlət standartları, əmək mühafizə qaydaları, yanğın təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, ekoloji, sanitar-epidemioloji, fövqəladə hallardan müdafiə normalarına uyğun olmalıdır.

Təəssüf ki, bəzi yaşayış binalarında, obyektlərdə liftlərin texniki xidmətinə nəzarət yoxdur. Liftlər müntəzəm olaraq yoxlanılmalı, istismar müddətini bitirmiş avadanlıqlar, detallar, mexanizmlərinin, reys, əyləc sistemi, troslar, elektrik, mühərrik sistemlərinin dəyişdirilməsi məsələləri diqqətdə saxlanılmalıdır. Təbii ki, vaxtında təmir işləri görülmədikdə arzuolunmaz hadisələrin baş verməsi qaçılmazdır. Köhnə liftlərdə vəziyyət heç də ürəkaçan deyil. Liftin qırılıb, şaxtaya düşməsi isə artıq onun tamamilə sıradan çıxması deməkdir. Liftə həm qaldırıcı, həm də qoruyucu troslar qoyulur. Onlardan biri qırılırsa, digəri avtomatik olaraq kabinanı saxlayır. Bu, daha çox köhnə binaların liftlərində rastlanan durumdur. Amma yeni model liftlərdə isə sürət artan kimi əyləc sistemi dərhal işə düşür və tam təhlükəsiz dayanır".

**Ekspert vurğulayıb ki, liftdən istifadə qaydalarına əməl edilməlidir:** "Kabinasında lüzumsuz, yersiz hərəkətlər, bir neçə düyməni eyni anda basmaq, tavana, qapılara toxunmaq, divara söykənmək kimi hərəkətlər yolverilməzdir. Uşaqları daim diqqətdə saxlamaq lazımdır.

Əgər liftin düymələri nasaz və ya qopubsa, işıqları yanmırsa, üzərində elektrik qısa qapanması varsa, nəinki o düymələrə əl vurmaq, hətta o liftə minmək də olmaz. Əksər liftdə güzgü mövcuddur.

Güzgünün də müəyyən qədər təhlükəsizlik şəraiti yaratmaq funksiyası var. Lift çağırılan mərtəbədə qapı açılarkən insan güzgüdə özünü görürsə, deməli, lift həmin mərtəbədədir. Bəzən lift qapısı açıq qalır və şaxtaya gəlmir. Belə olduqda, insan elə bilir ki, lift şaxtada dayanıb. Bu baxımdan insan həyatı üçün güzgülər böyük əhəmiyyət daşıyır".

**Sücayət Mehti**

# Tahir Əmiraslanov kitabxanasını yandırdı

## Keçmiş baş kulinarı qınayanlar, dəstəkləyənlərdən çox oldu



**Azərbaycan Milli Kulinariya Assosiyasiyasının keçmiş rəhbəri Tahir Əmiraslanov şəxsi kitabxanasındakı kitabların bir qismini yandırıb. Olayı T.Əmiraslanovun özü ictimailəşdirib.**

"Hər dəfə əsəbiləşəndə kitablarımın və arxivimin bir hissəsini töküb yandırıram. Həm əsəblərim sakitləşir, həm ev boşalır, həm də ağcaqanadlar uzaqlaşır. Kitablar, diplomlar və s. yaxşı yanır.

Mən kitabları Milli Mətbəx Muzeyinə qoymaq üçün toplayırdım. Ölkəmə lazım olmayan şeylərin üstündə niyə əsməliyəm ki ", - deyə Milli Kulinariya Assosiyasiyasının rəhbəri vurğulayıb.

Tanınmış kulinarın gözlənilməz addımı ictimaiyyət və kitabsevərlər tərəfindən birmənalı qarşılanmayıb. Sosial şəbəkə istifadəçilərinin bir çoxu Tahir Əmiraslanovu kitabları yandırmaqda qınayıb. Elm xadimləri, jurnalistlər, yazıçılar, müxtəlif sahə üzrə mütəxəssislər T.Əmiraslanovun kitabları yandırmasına münasibət bildirib.

**"Şərq" həmin şərhləri təqdim edir:**

Televiziya aparıcısı Günel Gözəlova: "Düz edirsiz".

**Şairə, publisist Gülarə Munis**: "Hörmətli Tahir müəllim, o yandırılanların hər birində sizin əllərinizin hərarəti, zəkanızın məhsulları var. Onlarsız necə sübut etmək olar ki, bizim milli mətbəxin nümunələri hansılardır? Lənət şeytana deyib, dayanın, əl saxlayın!".

**Sosial-İqtisadi və Kənd Təsərrüfatının İnkişafına Dəstək İctimai Birliyinin sədri Zülfiyyə Nuriyeva:**

"Sizin kimi milli ruhlu insandan, nəyəsə əsəbiləşib bu etdiyinizə bəraət verə bilməyəcəm. Sizə hörmətim böyükdür. Amma milli mətbəximizi sevən və təbliğ edən bir şəxs kimi sizdən daha səbrli, təmkinli və məntiqli qərar gözləyirdim. Düşmənimizin gözü bizdədir və sizi də mütləq tanıyırlar. Onlarla mübarizənizi unuda bilməzsiz".

Məsələn, kitabları Gənclər Evlərinə hədiyyə edə bilərdiz. Sizin peşəyə və ya sahə üzrə peşə məktəbinə gənclərin marağı çoxdur. Yandırmaq tamamən geri dönüşü olmayan yol deməkdir. Təəssüf".

**AMEA-nın Elmi Tarixi İnstitutunun elmi katibi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev:**

"Siz bu ölkədə mədəniyyəti, milli mətbəxi, milli dəyərləri özündə daşıyan tək-tük insanlardan birisiz, etməyin... Biz də, sizin yolu gələnlər pessimistləşirik, daha belə ölkədə yaşamaq istəmirik".

**İlahiyyatçı-ekspert Tural İrfan:**

"Çox doğru edirsiniz. Mən də nadir materiallarımı yandırıram tez -tez. Daha bu ölkədə heç nəyə ehtiyac yoxdur. 8 ilə sənədli roman yazmışdım, onu da yandırdım. Sizi ancaq filosoflar başa düşər".

**Hüquq üzrə fəlsəfə doktoru, Bakı İnsan hüquqları məktəbi İB Prezidenti Azər Ələkbərov:**

"Tahir müəllim, sizə məsləhət kimi çıxmasın, mübariz olun və sizə qarşı haqsızlıq edənə görə bunu etməyin. Bilin, sizə dəstək verənlər də var, az deyil. Zaman hökmünü verər, narahat olmayın".

**Yazıçı, publisist Vəsimə İsmayılqızı:**

"Heyif... geri dönməyəcək bilgilər. Geri gəlməyəcək tarix... Çox heyif... Amma od təmizlikdir, ruhunuza, fikrinizə hopmuş neqativlər bu odla təmizlənsin".

**Tanınmış pedaqoq, ADPU-nun dosenti İlham Əhmədov:**

"Burda incə məqam var. Tahir müəllim ölkədə kulinariya üzrə beynəlxalq səviyyədə tanınan, milli mətbəximizi dünyada təbliğ edə bilən ilk və yeganə adamdır. Lakin onun illərlə topladığı kitabxana kimi təcrübəsi, biliyi, istedadı da bu ölkəyə lazım olmadı. "Ölkəmə lazım olmayan şeylərin üstündə niyə əsməliyəm ki?" deyərkən, o, yandırdığı kağızlardan çox həyatı boyu qazandığı "insan kapitalını" nəzərdə tutur, ona qarşı olan ədalətsizliyə etiraz edirdi. Bəlkə də bu təcrübəni, biliyi, arxivi itirməklə, gələcəkdə milli mətbəximizə qarşı erməni oğurluqlarına sipər çəkmək çətin olacaq. Tahir müəllim də bu sahənin "qazisi" idi".

**Qida mütəxəssisi Ağa Salamov:**

"Tahir müəllim, onu ən azından peşə məktəblərinə və ya yetirmələrinizə verə də bilərdiniz. İnciməyin, amma kitaba qıymağınızı heç ağlımdan da keçirməzdim .... Təəssüf".

*Qeyd edək ki, ictimaiyyətin kəskin reaksiyası Tahir Əmiraslanovu atdığı addıma aydınlıq gətirməyə məcbur edib.*

**O, istifadəçilərə belə cavab verib:**

"Kitablarımı yandırmağıma yüzlərlə rəy bildirilib. Müxtəlif yozumları qarşılamaq üçün səbəbini açıqlayıram: "İnsanlarımızın kitab oxumamalarına və bununla ölkəmizi geri çəkmələrinə etiraz edirəm. "Natıonal Geoqrafik" kimi böyük bir resursda mətbəximiz təhrif edilir, mətbəxi qorumaq üçün yaradılmış qurum bunu təkzib etmir, cavablandırmır. Buna etirazımı bildirirəm. Yozmaq lazım deyil".

**Aygün Tahir**


### Elanlar

Rzayeva Pərvin Əziz-ağa qızına məxsus Masazır qəsəbəsindəki Qurtuluş 93, İstiqlaliyyət 45, mən.35 ünvanına dair order itdiyi üçün etibarsız sayılır.

Salyan rayonu, Qarabağlı, (VÖEN 2100011121), "İLKİN-N" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Qeydiyyat nömrəsi İN/L-1031/2016 21 aprel 2016-cı il tarixli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma" işlərini həyata keçirən lisenziya növü

Salyan rayonu, Qarabağlı, (VÖEN 2100011121), "İLKİN-N" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Qeydiyyat nömrəsi İN/L-1799/2016 - 23 avqust 2016-cı il tarixli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması işlərini həyata keçirən lisenziya növü

"İSEL A" MMC-yə məxsus VÖEN 2906305351, Asan imza nömrəsi, möhür 02.04.2022-ci il tarixdə naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyasının tələbəsi Rzayeva İlahə Nazim qızına verilmiş Tələbə vəsiqəsi (bakalavr, qrup № 1418a) itdiyi üçün etibarsız sayılır.


# Azercell-in sosial layihə müsabiqəsinin finalturu baş tutdu

## "Həyatı daha dolğun edirik!" şüarı altında keçirilən müsabiqənin finalına yeddi layihə təqdim edildi



**Ötən ay"Azercell Telekom" tərəfindən elan olunaraq ölkədə sosial sahədə rəqəmsal inklüzivliyi təşviq edən sosial layihə müsabiqəsi finala adlayaraq yekun mərhələsinə yaxınlaşır.**

Xatırladaq ki, müsabiqənin məqsədicəmiyyətin sosial fəallığını və inkişaf proseslərində daha aktiv iştirakını artırmaq, eləcə də,ayrı-ayrı sosial qrupların rifahının yüksəldilməsinə dəstək olmaqdır.Təhsil, mədəniyyət və sağlamlıqistiqamətində layihələri nəzərdən keçirən bu müsabiqədə rəqəmsal mühitin inkişafına, inklüzivliyə, həmçinintexnoloji həllər vasitəsilə həyat səviyyəsinin daha da yüksəldilməsinə dəstək olan layihələrə daha böyük üstünlüyün verilməsi nəzərdə tutulmuşdu.

Qeyd edək ki, qiymətləndirmə prosesinin şəffaflığı və obyektivliyini təmin etmək məqsədilə layihələr Azercell şirkətininəməkdaşları və ölkədə sosial məsuliyyət istiqaməti üzrə ixtisaslaşmış ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirilmişdir.

Beləliklə, bir ay müddətində davam edən qəbul prosesi zamanı 20-dən artıq müxtəlif sosial layihələrəbaxılmış, onlardan seçim şərtlərini ən yaxşı əks etdirən yeddi layihə finala keçid almışdır. Təqdim olunan layihələr milli ədəbiyyatın tanıdılması, qadınların İKT və cəmiyyətin müxtəlif sahələrinə inteqrasiyası, eləcə də, fiziki məhdudiyyətli şəxslərin rəqəmsal həllər vasitəsilə daha məhsuldar və aktiv həyata cəlb olunması kimi əhəmiyyətli məsələlərin həllinə yönəlmişdi. Finala haqq qazanmışqeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının nümayəndələri layihələrinin əhəmiyyətliliyinimünsiflər heyəti qarşısında əsaslandıraraqonların cəmiyyətə təsiri barədə proqnozları ilə bolüşdülər.

Yaxın zamanda seçiləcəküç qalib layihə Azercell tərəfindən qrantla mükafatlandırılacaq.

"Azercell Telekom" fəaliyyət göstərdiyi dövr ərzində hər zaman korporativ sosial məsuliyyət prinsiplərini üstün tutaraq cəmiyyətin sosial inkişafına fayda verən layihələrin təşəbbüskarı və dəstəkçisi kimi çıxış edib. Təhsil, mədəniyyət, idman, sağlamlıq, rəqəmsal savadın artırılması və digər sahələrdə müxtəlif miqyaslı layihələrin keçirilməsinə yardımçı olan şirkət 25 il ərzində sosial layihələrə 22 milyon ABŞ dollarından artıq vəsait xərcləyib.


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1994**



## Taxtadan hündür binalar tikiləcək

Rusiya hökuməti yeni qəarar hazırlayıb

**Rusiyanın Tikinti Nazirliyi 2024-cü ildən taxta konstruksiyalı hündürmərtəbəli yeni binaların tikintisinə başlayacaq.**

Bakupost.az xəbər verir ki, Taxtadan evtikmə Assosiayası ilə birgə iş barədə sənəd artıq hazırdır.

Rusiya tikinti sferasında taxtadan konstruksiyaların genişləndirilməsində maraqlıdır. "Bizim ölkəmiz tikintidə taxta konstruksiyaların istifadəsində qədim, zəngin təcrübəyə malikdir. Rusiyanın simvolu Kreml də əvvəl taxtadan tikilmişdi. Meşə təsərrüfatı ilə zəngin Rusiya bu tikinti sferasını xammalla təmin etmək gücünə malikdir. Ona görə də hökumət bazarın tələbatını nəzərə alaraq, taxtadan binaların tikilməsinin texniki göstəricilərini qanunvericilikdə bir daha nəzərdən keçirəcək", - deyə nazir İrek Fayzulin deyib. Taxtadan binaların daş və betondan olduğu kimi 12-18 mərtəbəli olacağı gözlənilir.

## Makaronun şəkər xəstələrinə faydası tapıldı

Bu qida insanı kökəltmir, hətta qanda şəkəri salır



**Bir çox həkimlər şəkər xəstələrinə makaronu qadağan edir. Lakin bərk buğda sortundan olan makaronların əksinə bu xəstələrə faydası açıqlanıb.**

Bakupost.az xəbər verir ki, dietoloq Mixail Qinzburq bu növ makaronun insanı kökəltmədiyini, hətta qanda şəkəri saldığını deyib.

"Belə makaronlar orqanizmin ümumi vəziyyətinə yaxşı təsir edir. Ağ undan olan makaron məmulatlarında qlüten çoxdur. Amma çeliakidən əziyyət çəkən insanlar da bərk buğdadan makaronu müntəzəm heç bir təhlükə hiss etmədən yeyə bilər. Makaronda olan yapışdırıcı zülal karbohidratların sovrulmasını ləngidir, nəticədə qlikemik indeksi salır, qana qlükozanın atılmasını azaldır, onun səviyyəsini düşürür. Şəkər xəstələrinə də elə bu lazımdır. Makaronların həzmi zamanı ayrılan karbohidratlar insanı uzun müddət tox saxlayır. Əgər makaronu tam çox yumşaq bişirmədən, bir az bərk götürsəz, o zaman qlikemik indeksi daha aşağı olacaq. Ona görə də şəkər xəstələri tam taxıldan makaronu istədiyi qədər yeyə bilər".

## Toyda belə oynadıqlarına görə polis saxladı

Əxlaq polisi rəqsi milli dəyərlərə zidd kimi dəyərləndirib



**İranın Xorasan əyaləti başçısı kişilərin geyiminə nəzarət üçün "Əxlaq polisi" yaradıb.**

**Lent.az xəbər verir ki, bu polislər İranda keçirilən toylardan birindəki qonaqları saxlayıb. Polis saxlanılan şəxslərin rəqsini milli dəyərlərə zidd kimi dəyərləndirib. Onlar dindirildikdən və zəruri izahat alındıqdan sonra sərbəst buraxılıb.**

## Sevgiləri 2 gün çəkdi

Cütlük sosial şəbəkədə biri-birini izləmədən çıxarıb



**İki gün öncə sevgili olduqları ortaya çıxan aktrisa Esra Bilgiçlə müğənni Reynmen ayrılıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük sosial şəbəkədə biri-birini izləmədən çıxarıb. Onların hansı səbəbdən ayrıldığı isə hələlik bəlli deyil.**

## Ebru Şahinin toyu oldu

Cütlüyün məclisi Çesmədə keçirilib



**Dünən türkiyəli aktrisa Ebru Şahinin basketbolçu Cedi Osmanla toyu olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlüyün məclisi Çesmədə keçirilib. Toyda onların yaxın dostları və ailəsi iştirak edib.**

***Qeyd edək ki, aktrisayla basketbolçu iyulun 1-də Makedoniyada nikah bağlayıb.***




# Ağcaqanad pilotun həyatına son qoydu

21 yaşlı xanımın başına ağlasığmaz hadisə gəlib





**Uşaq yaşlarından pilot olmağı arzulayan 21 yaşlı Oriana Pepperin həyatına səma deyil, lənətə gəlmiş ağcaqanad son qoyub. "Milliyet.com.tr"də yer alan məlumatda bildirilir ki, gənc xanım pilotun başına gələnlər ağlasığmaz görünür, lakin reallıqdır.**

Oriana Oksforddakı pilot proqramında nəzəri imtahanları uğurla başa vurduqdan sonra Belçikaya gedib. Belçikanın Anvers bölgəsində pilotluq təcrübəsi keçib. Təlimlər zamanı eyni təlimlərdə iştirak edən, Arizona ştatından Jeymslə tanış olub, aralarında dostluq yaranıb. Hər ikisinin istəyi yük təyyarəsi pilotu olmaqdı. Oriana səmada, buludlar arasında uçmağı "səmada ofisə sahib olmaq" adlandırırmış. Orinananın həyatına son qoyacaq hadisə də Anversdəki təlimlər zamanı baş verib. Təlimlər zamanı Oriana və Jeymsi ağcaqanadlar sancıb. İlk vaxtlar heç bir sıxıntı baş verməyib. Lakin sonra Oriananın sağ gözünün yanında qaşınma başlayıb. Məlum olub ki, ağcaqanad gənc qadının sağ gözünün yanından sancıb. Qadınını göz ətrafları şişməyə başlayıb. Əvvəlcə buna o qədər də əhəmiyyət verməyib. Lakin günlər keçdikcə gözün ətrafındakı şiş böyüməyə, yayılmağa başlayıb. Jeyms Oriananı xəstəxanaya aparıb. Müayinələr zamanı ağcaqanadın sancmasının orqanizmdə infeksiyaya səbəb olduğu aydınlaşıb. Gənc xanıma antibiotik qarışığı vurulub. Oriana bir müddət özünü yaxşı hiss etsə də, 2 gün sonra halı qəfil pisləşib. Gənc xanımın dili tutulub, huşunu itirib. Jeyms onu təkrar xəstəxanaya aparıb. Ailəsi Oriananın yatağının yanında dayanaraq onun ayılmasını, özünə gəlməsini gözləyib. Lakin ağcaqanad sancmasının törətdiyi infeksiya artıq onun beyninə yayılıbmış. Az keçmiş gənc pilot vəfat edib. Ədli tibb həkimi Nigel Parsley gənc pilotun ölüm səbəbini belə izah edib: "Ağcaqanad sancması Oriananın dərisində infeksiya əmələ gətirib. İnfeksiya boynun karotid damarına yayılıb, beynində septik emboli - qan laxtası əmələ gəlib. Ölümünə də bu səbəb olub. İndiyədək belə halla heç rastlaşmamışdıq. Oriananın qarşısında səma kimi geniş karyera üfüqləri vardı. Gənc qızlarını itirmiş bir ailə üçün bundan böyük faciə düşünə bilmirəm".

**Məlahət**




# Deyirlər, xeyri yoxdur

Eyni yerlərdə boğulma hadisələri tez-tez olur

**Dəniz heç də həmişə xoşbəxtlik gətirmir. Hər il olduğu kimi, bu il də dəniz mövsümü açılandan bəri çimərliklərdə xeyli sayda boğulma hadisələri baş verir. Dünən də iki boğulma hadisəsi qeydə alınıb.**

Bakıda məktəb şagirdi dənizdə boğulub. Hadisə Pirşağı qəsəbəsində yeləşən çimərlikdə qeydə alınıb. 7 yaşlı Rəbiyə Məmmədli nənəsi ilə birgə çimərlikdə olarkən dənizdə batıb. Hadisə onun nənəsinin gözləri qarşısında baş verib. İkinci bədbəxt hadisə isə Qusarda baş verib. Kənd sakini, 2008-ci il təvəllüdlü Ağamirzəyev Amin Şahin oğlu Samur-Abşeron kanalında çimərkən boğulub. Onun tapılması istiqamətində axtarış tədbirləri davam etdirilir.

**"İnsanlar var ki, illərdir eyni qadağan olunmuş çimərliklərə gedir"**

Bu kimi halların qarşısını almaq üçün qeyri-çimərlik anlayışının ləğv edilməli olduğunu vurğulayan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə bildirib ki, çimərlik varsa, orada təhlükəsizlik tədbirləri görməklə, insanların həmin ərazidə istirahətinin təşkil olunması üçün şərait yaratmaq lazımdır: "İnsanlar var ki, illərdir eyni qadağan olunmuş çimərliklərə gedir. Nəticədə də boğulma halları baş verir. Yəni, çimərlik varsa və artıq insanlar bundan istifadə edirlərsə, orada insanların təhlükəsizliyini təmin etmək lazımdır. Nəzərə alaq ki, eyni çaylarda, göllərdə təkrar-təkrar boğulma halları baş verir. Ona görə hesab edirəm ki, bu məsələyə ümumi yanaşma, çimərliklərin təhlükəsizlikləri ilə bağlı konsepsiya olmalıdır.

Çimərlik varsa, orada xilasetmə xidməti olmalıdır. Çünki belə ərazilərin sayı elə də çox deyil ki, bunu həyata keçirmək mümkünsüz olsun. İnsanların üz tutduğu qeyri-çimərlik ərazilər nəzarətə götürülüb, təhlükəsizlik təmin olunmalıdır".

**Ekspert qeyd edib ki, burada insanların da üzərinə müəyyən məsuliyyət düşür:** "İnsanlar öz həyatlarına biganə yanaşmamalıdır. Onlar bilməlidirlər ki, qeyri-çimərliklərdə xilasetmə xidmətinin əməkdaşları olmur. Onlar olmayan yerlərdə də bədbəxt hadisə qaçılmaz olur. Bu səbəbdən yanaşma dəyişməlidir.

*Qeyd etmək lazımdır ki, qadağan olunmuş çimərliklər yalnız boğulma təhlükəsinə görə qadağan olunmur. Burada suyun, sahilyanı ərazinin təmizliyi, suyun dibinin relyefi, sualtı yanğınlar, axınlar kimi məsələlər də mövcuddur. Bunların hər biri yoxlanıldıqdan sonra çimərliyin yararlı olub-olmayacağına qərar verilir".*

**Çimnaz Şahlar**

## Milyarderin öz əməkdaşından əkiz övladları doğulub

Uşaqların atasının Musk olduğu məhkəmə sənədləriylə bəlli olub




**Dünyanın ən varlı adamlarından biri, "Tesla", "SraseX" şirkətlərinin baş icracı direktoru Elon Muskun əkiz övladları dünyaya gəlib.**

Ən maraqlısı isə əkizlərin E.Muskun xanım əməkdaşlarından birindən dünyaya gəlməsidir. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Elon Musk şəxsi həyatıyla yenə gündəmdədir. Bir müddət öncə E.Muskun "Twitter"i satın aldığı və övladlarından birinin cinsiyyətini dəyişdirdiyi xəbərləri yayılmışdı. Yeni məlumat isə Muskun özü haqqındadır. "Texnologiya dünyasının dahisi" adlandırılan Elon Muskun şirkətdəki xanım əməkdaşlardan biriylə qeyri-rəsmi nikahdan əkiz övladları doğulub. Əkizlərin atasının məhz E.Musk olduğu məhkəmə sənədləriylə bəlli olub. Musk illər öncə "Rolling Stone" jurnalına müsahibəsində uşaq yaşlarından təkliklə mücadilə etdiyini və əsla yalnız qalmaq istəmədiyini söyləmişdi. E.Muskun ilk evliliyindən (Justine Vilson) 5 övladı var. 2010-cu ildə verdiyi bir müsahibədə isə E.Musk övladlarını həyatının sevgisi adlandırmışdı. E.Musk boşandıqdan sonra isə şəxsi həyatında bir neçə qadın olub. Müğənni Grimes "texnologiya dahisi"nə daha 2 övlad bəxş edib. Bu günlərdə isə E.Muskun daha 2 övladının - yenə əkizlərin dünyaya gəldiyi xəbəri yayılıb. Bununla da hazırda E.Musk 9 uşaq atası sayılır.

**Məlahət**

## Beyni gənc saxlayan qəhvədir

Çin alimləri orta yaşdan sonar insanlara bu içkini məsləhət görür



**Beyin yaşlanmasına qarşı ən təsirli içki tapıldı.**

Bakupost.az xəbər verir ki, Çin alimləri orta yaşdan sonra beyini gənc saxlamaq üçün qəhvənin təsirli olduğu qənaətinə gəlib.

Huançjun universitetinin tədqiqatçıları kofeinin beynin koqnitiv funksiyalarının yaşlanma ilə bağlı geriləməsinin qarşısını alır.

2011-2014-cü illəri əhatə edən araşdırmada yüzlərlə insanın üzərində təcrübə göstərib ki, qəhvə içənlərin beyini daha aktiv qalır.

Amerikalı dietoloq Dana Ellis Hannas da bu içkinin çoxlu polifenol və antioksidanta malik olduğunu deyərək, onun iltihab əleyhinə təsir göstərdiyini bildirib.

"Qəhvəni nə qədər çox öyrəniriksə,bir o qədər çox faydasını tapırıq. Amma beyinə təsir üçün təbii, əlavəsiz qəhvə seçilməlidir. Gündə 3 fincandan artıq qəhvə içmək olmaz.

Lakin isti yay aylarında qəhvə içmək zərərlidir".